يا علي بن ابي طالب

بسم الله الرحمن الرحيم

الحمد لله الذي جعلنا من المتمسكين بولاية علي بن ابي طالب

# *“QƏDİR-XUM” XÜTBƏSİNİN QISA TƏHLİLİ*

*Mərhəmətli, rəhmli Allahın adı ilə! Hz. Peyğəmbər (s) xütbəyə ilk öncə Allah-təalaya həmd-səna ilə başladı. Allahın qüdrət və rəhmət sifətlərini zikr etdikdən sonra onun müqabilində öz bəndəliyinə şəhadət verdi. Sonra Peyğəmbər (s), İmam Əli (ə) ilə bağlı çox mühüm bir məsələni xalqa çatdırdı. Peyğəmbər (s), onu da bildirdi ki, bu xəbəri xalqa çatdırmasa, peyğəmbərlik vəzifəsini yerinə yetirməmiş sayılacaq. O həzrət, buna görə Allahın əzabından qorxduğunu dedi. Qədir-Xum hadisəsinin ən önəmli məqamı da məhz bundan ibarətdir. Daha sonra O həzrət (s), “imamlıq” məqamı haqqında məlumat verib özündən sonra gələcək on iki imamın imamət və vilayət sahibi olacaqlarını bəyan etdi. Həzrətin buyurduqlarında, on iki imamın vilayətinin bütün zaman, məkan və insanlara aid olması, digər bir mühüm məsələ kimi gözə çarpır. Əhli-beytin (s) sözü və qərarı, həyatın bütün sahələrində qəti dəlildir. Onlar, Peyğəmbərdən (s) sonra Allahın həqiqi nümayəndələri, Onun halal-haramını açıqlayan yeganə mötəbər şəxslərdir. Peyğəmbər (s), xütbə əsnasında imam Əlini (ə) camaata belə təqdim etdi:*

*“Mən kimin rəhbəriyəm (əmr sahibi) Əli (ə) də onun rəhbəridir. İlahi! Onun dostları ilə dost, düşmənləri ilə düşmən ol və onu xar etmək istəyənləri xar et”.*

*Dinin tam və kamilliyini imamların vilayəti ilə əlaqələndirdi. Sonra Allah, mələklər və camaatı şahid tutdu. Xütbənin davamında Hz. Peyğəmbər (s) buyurdu: “İmamların vilayətini inkar edənlərin əməlləri qəbul olmaz və o şəxslərin yeri cəhənnəmdir”. Həzrət sonra İmam Əlinin (ə) bəzi fəzilət və dəyərlərini açıqlayaraq (s) bildirdi ki, Əhli-beytə düşmən olan hər kəs Allahın qəzəbinə tuş gələcək. Sonra Qurani-kərimdən bəzi əzab ayələrini tilavət edib “Bu ayələrdə məqsəd mənim bəzi səhabələrimdir” deyərək özündən sonra Əhli-Beytin (ə) məqam və haqqını qəsb edənləri lənətlədi. Peyğəmbər (s) xütbəsində Əhli-beytin məhəbbət və vilayətinin təsirlərini açıqladı; Həmd surəsində deyilən “doğru yol”-un Əhli-beytin (ə) tərəfdarı olmaqda xülasə etdi (mənalandırdı). Peyğəmbər (s), Quranda cənnətdən bəhs edən əyələri, məhz Əhli-Beyt (ə) tərəfdarlarının məqamı haqqında nazil olduğunu bildirdi. Sonda Peyğəmbər (s), 12-ci imam barədə mühüm məsələlərə işarə etdi. İmamın xüsusiyyətlərini açıqladı. Həzrət (ə) müjdə verib bildirdi ki, məhz onun vasitəsi ilə dünyada ədalət bərpa olacaq. Peyğəmbər (s), camaatı özü və imam Əli (ə) ilə “beyət” etməyə dəvət edərək bu beyətin Allahın əmri ilə olduğunu dedi. Peyğəmbər (s) ilahi əhkam barədə danışdı: “Mən halal və haramı imamların vasitəsi ilə qiyamətə qədər bəyan edirəm. Onların elm və əməlləri haqqdır.” Həzrət peyğəmbər (s) on iki imama itaət etməyi və bu mühüm hadisəni gələcək nəsillərə çatdırmağı əmr etdi. Xütbədən sonra camaat İmam Əliyə (ə) beyət etdilər. Hz. Peyğəmbər (s) sonda əmrlərini inkar edənləri qarğış etdi və onu təsdiqləyənlər üçün dua etdi. Xütbə, Allaha həmd-səna ilə başa çatdı.*

*“Agah olun ki, mən Allaha beyət etmişəm, Əli (ə) də mənə beyət etmişdir və mən sizdən onun üçün Allahın əmri ilə beyət alıram. Onunla beyət edənlər Allaha beyət etmişdir. Allahın (qüdrət) əli bütün əllərdən (qüdrət və güclərdən) üstündür. Hər kəs zülm etsə özünə edib və hər kəs əhdinə vəfa etsə ona böyük əcr və savab veriləcəkdir.*

*Ə. Şəhriyar*

# VİLAYƏT BAYRAMI

## İLAHİ CANİŞİNLİYİN BAŞLAYAN GÜNÜ

***Hicri-qəməri tarixi ilə ilin son ayı olan mübarək Zilhiccə ayı bərəkətli aylardandır. Qurban bayramından 8 gün sonra Vilayət günü, yəni İlahi canişinliyin başlayan günü Əhli-beyt (ə) yolçuları üçün müqəddəs bayramdır. Əslində bu bayram islam dinində Fitr və Qurban bayramlarından da önəmli yer tutur. Böyük təəssüf hissi ilə qeyd etmək lazımdır ki, Qədir-Xum hadisəsi və bayramı haqqında müsəlman dünyasının əksəriyyəti özünü qəflətə qoyur. Bəs bu gün nə baş verib?***



Əziz İslam Peyğəmbərimiz (s) bərəkətli ömrünün son aylarında müsəlmanlara həcc ibadətini yerinə yetirmək buyruğunu verdi. 120 minə yaxın müsəlman son dəfə həccin ayinlərini, qayda-qanunlarını birdəfəlik öyrənmək məqsədi ilə Allah Rəsulu (s) ilə birgə bu səfərə çıxdı. Səfər boyu dəfələrlə Allah tərəfindən əmr alırdı ki, bu böyük hacı izdihamı qarşısında bir daha rəsmi və qəti şəkildə Əlini (ə) İslam ümmətinə rəhbər təyin etsin. Həcc əməlləri sona çatdı. Peyğəmbər (s) Allah evi ilə, vətəni - Məkkə ilə son dəfə vidalaşdı və Mədinəyə yola düşdü. Zilhiccə ayının 18-də Qədir-Xum çölünə çatdılar. Burada yollar ayrılırdı və hərə öz vətəninə yola düşürdü. Elə bu səhrada da vəhy mələyi Rəsulallaha (s) çatdırdı ki, «ey Allahın rəsulu Rəbbindən sənə nazil olanı təbliğ et. Əgər bunu etməsən onun missiyasını yerinə yetirməmiş olursan. Allah səni camaatın şərindən qoruyar». («Maidə», 67).

Bu vədədən sonra Peyğəmbər heç bir narahatlıq və təşviş hissi keçirmədən əmri icra etmək qərarına gəldi. Göstəriş verdi ki, hamı bir yerə toplansın. Qaratikan kollarından başqa bu səhrada heç bir bitki yox idi və günortanın istisi qumu qızdırmışdı. Belə bir yerdə dayanmağın səbəbini kimsə bilmirdi. Hər kəs öz zehnində o Həzrətin (s) məqsədini araşdırırdı. Peyğəmbər isə ümmətin gələcək taleyini həll edəcək mühüm bir əmri çatdırmaq istəyirdi.

23 il Allah yolunda, islam dini uğrunda olmazın əziyyətlərə dözmüş, müqavimət göstərmişdi. İndi İslam dininin kamilləşəcəyi an reallaşmaq üzrə idi.

Peyğəmbər (s) bu böyük xəbəri çatdırmaq üçün dəvələrin palanlarından yığılaraq düzəlmiş minbərin üstünə çıxdı. Müsəlmanlar onu üzük qaşı kimi araya almış və onun nurani çöhrəsinə maraqla tamaşa edirdi. Nəhayət Allahın əmri onun mübarək dilindən çatdırıldı və insanların narahatçılığına son qoyuldu.

VI əsrin böyük tədqiqatçı alimlərindən olan Təbəri "Ehdicac" kitabında bu mötəbər hədisi işıqlandırıb. Hər 2 məzhəbin qaynaqlarında da bu haqda oxumaq olar. Dəryanın suyunu tamam içmək olmasa da, susuzluğu dəf etmək olar.

Hicrətin 10-cu ilində Ərəbistan yarımadasında, o izdihamın qarşısında baş verən Qədir-Xum hadisəsindən 1400 ildən çox keçir. Hələ də bu xəbər müsəlmanları vəhdətə çağırır. Peyğəmbər (s) buyurmuşdu: "Əgər xilafət və hakimiyyəti Əliyə (ə) tapşırsanız görəcəksiniz ki, o, sizi doğru yol, siratəlmüstəqimə aparacaq ilahi və agah bir rəhbərdir".

Bu gün biz təəssüf hissi ilə insanlığın tənəzzülə doğru getdiyi bu mənəvi boşluq dövrünün məhz Qədir-Xum hadisəsinin unudulması ilə əlaqələndirə bilərik. Bu təfriqələr, islamın 73 yerə parçalanması və müsəlmanların hər sahədə geri qalması kimi acı nəticələr Peyğəmbərin (s) vəsiyyətlərinin, ən başlıcası isə Allahın əmrinin icra edilməməsinin sayəsində baş vermişdir. Axı Qədir-Xum hadisəsi elə bir tarixi sənəddir ki, onun mütəvatirliyi haqqında heç bir şəkk-şübhə yoxdur.

Həqiqət sorağında Ümidilə!
Əzəmət İbrahimova



# İMAM HÜSEYNİN (Ə)
## *Kərbəlada Aşura gecəsi etdiyi xütbə*

***İmam Zeynul-Abidin (əleyhissəlam) buyurur: "Huseyn (əleyhissəlam) və səhabələri axşam vaxtı cəm oldular. Mən o vaxt xəstə idim. (İmam Huseynin (əleyhissəlam) Onlara nə dediyini eşitmək üçün yaxınlaşdım. İmam Huseyn (əleyhissəlam) belə buyururdu: "Allaha ən gözəl şəkildə təriflər deyirəm. Gizlində və aşkarda ona həmd edirəm. İlahi, bizi nübuvvətlə şərəfləndirdiyinə, Quranı bizə öyrətdiyinə və bizi dini bilən etdiyinə görə sənə həmd edirəm. Sən bizə qulaqlar, gözlər və ürəklər vermisən. Bizi şükr edənlərdən qərar ver.***

Həqiqətən mən öz səhabələrimdən daha vəfalı və daha xeyirli səhabə, Əhli-beytimdən daha yaxşı və yaxın Əhli-beyt tanımıram. Allah mənə görə sizə xeyirli mükafat versin. Mən belə düşünürəm ki, bu bizim bunların əlindən sağ qaldığımız axırıncı gündür. Mən sizə çıxıb getməyiniz üçün icazə verirəm və boynunuzda olan haqqımı götürürəm. Gecənin qaranlığını (rahat getməyiniz üçün) fürsət bilin."

Qardaşları, oğlanları, qardaşları oğlanları və Əbdullah ibn Cəfərin iki oğlu ona belə dedi: "Bunu niyə edək? Səndən sonra sağ qalmaq üçün? Allah bunu bizə heç vaxt göstərməsin." Bu sözü ilk dəfə Abbas ibn Əli (Allah ondan razı olsun) deməyə başladı. Ondan sonra digərləri bu sözə oxşar sözlər dedilər.

İmam Huseyn (əleyhissəlam) buyurdu: "Ey Əqilin övladları, Muslimin öldürülməsi sizə bəsdir. Siz gedin, mən sizə icazə verirəm." Onlar belə dedilər: "Subhənallah, camaat bizə nə deyər? Deyərlər ki, biz öz böyüyümüzü, ağamızı, ən xeyirli əmi olan əmimizin övladını tərk etmişik, onunla ox atmamışıq, nizə vurmamışıq, onunla qılınc vurmamışıq və onun başına nə gətirilib xəbərimiz yoxdur. Allaha and olsun, biz bunu etməyəcəyik. Əksinə öz canımızı, malımızı və ailəmizi sənə fəda edəcəyik. Sənin getdiyin yerə gedənə kimi səninlə birgə döyüşəcəyik. Allah səndən sonra yaşamağın üzünü qara etsin."

Muslim ibn Övsəcə qalxaraq belə dedi: "Səni tərk edək? Bəs Allaha sənin haqqını ödəməməyimizə görə nə üzr gətirəcəyik? Allaha and olsun, onların sinəsinə nizə vuracağam və qılıncımın qını əlimdə qalana qədər onlara qılıncımla zərbə endirəcəyəm. Əgər silahım olmasa onlara daş atmaqla onlarla döyüşəcəyəm. Qoy Allah bilsin ki, biz Allah Rəsulu aramızda olmasa da sənin haqqını qorumuşuq. Allaha and olsun, əgər bilsəm ki, mən öldürüləcəyəm, sonra dirildiləcəyəm, sonra yandırılacağam, sonra dirildiləcəyəm, sonra kül ediləcəyəm və bu işi mənimlə yetmiş dəfə təkrar edəcəklər, sənin qarşında ölməyənə qədər səndən ayrılmayacağam. Mən bu işi necə etməyim ki, bu bir dəfə olan bir ölümdür və bu ölüm əbədiyyən bitməyən bir kəramətdir."

Züheyr ibn Qeyn (Allah ona rəhmət eləsin) ayağa qalxaraq belə dedi: "Allaha and olsun, mən istəyirəm ki, öldürülüm, sonra dirildilim sonra yenə öldürülüm və mənimlə min dəfə bu iş baş versin və Allah bunun vasitəsi ilə ölümü səndən və Əhli-beytinin bu cavanlarından uzaqlaşdırsın."

Sonra səhabələrindən digərləri də buna bənzər sözlər dedilər."[Şeyx Mufid, "Əl-İrşad", c. 2, səh. 92]

Seyyid Haşim Bəhraninin Əbu-Həmzə Somalinin İmam Zeynul-Abidindən (əleyhissəlam) rəvayət etdiyi başqa bir hədisdə İmam Səccad (əleyhissəlam) İmam Huseynin (əleyhissəlam) bu xütbəsindən sonra İmam Həsənin (əleyhissəlam) 10-14 yaş aralarında olan və Kərbəlada şəhid olmuş oğlu Qasimin (əleyhissəlam) belə dediyini nəql edir: "Mən də öldürülənlərdən olacağam?" İmam (əleyhissəlam) buyurdu: "Ey oğlum, ölüm sənin üçün necədir?" Qasim (əleyhissəlam) dedi: "Ey əmi, ölüm mənim üçün baldan da şirindir." İmam Huseyn (əleyhissəlam) buyurdu: "Əmin sənə fəda olsun, bəli, sən və oğlum Abdullah (Əli-Əsğər) böyük bəla gördükdən sonra mənimlə birgə şəhid olacaq kişilərdən birisən."["Mədinətul-məaciz", c. 4, səh. 215]

**Hazırladı: Şeyx Fəqan**



# İMAM HÜSEYNİN (Ə) ÖZ DİLİNDƏN
# QİYAMIN HƏDƏFLƏRİ

***İmam Hüseynin müqəddəs qiyamı cəmiyyətdə (islam ümmətində) baş verən köklü inhiraflara görə idi. Cəmiyyətdəki inhiraflar İslam hökumətindəki inhiraflardan doğdu. Həzrət Peyğəmbərin (s) qurduğu islam hökuməti öz əsil yolundan çıxıb, Əməvilərin islam əleyhinə qurduğu partiyanın əlinə keçmişdi. Tarixi sənədlər də isbat edir ki, bu partiyanın başçıları İslam dininə və onun üsuluna (üsuliddinə inanmırdılar) heç bir etiqadları yox idi.***

***[Əl-Dərəcatur-rəfiə, səh 243; Şərhi nəhcül-bəlağə, 8-ci cild, səh 257].***




Böyük Qureyş tayfasının içərisindəki qəbilələrdən Bəni Haşim və Bəni Üməyyə arasında hələ keçmişdən ixtilaflar var idi [Şərhi Nəhcül-bəlağə, 9-cu cild, səh 53]. İslam dininin meydana çıxması və həzrət Peyğəmbərin (s) qüdrətə çatması ilə Bəni Haşim qəbiləsi Bəni Üməyyə qəbiləsinə qalib gəldi. İkinci xəlifənin dövründə Müaviyə ikinci xəlifə tərəfindən Şamda hökumət etmək üçün təyin edildi. Beş il belə davam etdi. Osmanın xilafət dövründə də (12 il) Müaviyə Şamda hakim idi. O Şamın hakimi olduğu müddətdə gələcəkdə xəlifə olmaq üçün bütün imkanlardan istifadə edirdi (öz gələcək hakimiyyətinə zəmin yaradırdı). Osman xilafətindən sonra Müaviyə Şamın güclü hakimiydi və Mədinədə əsas qərarları o verirdi, həqiqətdə Mədinənin rəsmi xəlifəsinə çevrilmişdi. Hicri təqvimi ilə 40-cı ildən başlayaraq islam hökuməti və islam ümmətinin müqəddəratı bu partiyanın əlinə keçdi. Müaviyə 20 il hökumət etdi. Onun ölümündən bilafasilə sonra oğlu Yəzid hakimiyyətə gəldi. İslam bayrağı altında "yeni cahiliyyət" dövrü başladı.

İmam Hüseyn (ə) belə faciənin müqabilində sükut edə bilməzdi. Məsuliyyət hissi imamı vadar etdi ki, mövcud vəziyyətə etiraz və müxalifət etsin. İmam Hüseyndən bizə çatan məktublar, sözlər və digər sənədlər açıq-aşkar göstərir ki, imam Hüseynin (ə) fikrincə müsəlmanların rəhbərində xüsusi sifətlər və xislətlər olmalıdır ki, onların heç biri Əməvilərdə yox idi. Ən böyük fəsad bundan ibarət idi ki, islam xilafəti, həzrət Peyğəmbərin (s) kürsüsünü fasid və nalayiq şəxslər zəbt etmişdi. Onların hakimiyyətinin acı və pis nəticələri hər şeyi viran etmişdi.

Bu barədə imam Hüseynin öz dilindən neçə nümunəni qeyd edirik:

**Müsəlmanların rəhbərinin xüsusiyyətləri**

1-İmam Hüseynə (ə) Yəzidə beyət etmək üçün təzyiqlər Mədinə şəhərindən başladı. Vəlid imama Yəzidin beyətini təklif etdi. İmam onun cavabında buyurdu: "Müsəlmanlar Yəzid kimi şəxsin hökumətinə giriftar olublarsa islamın fatihəsini oxumaq lazımdır" [Əl-Lühuf, səh 11].

2-İmam Hüseyn (ə) kufəlilərin məktubunun cavabında buyurub: "Müsəlmanların rəhbəri o şəxsdir ki, Allahın kitabına əməl etsin, ədalətli davransın, haqqa itaət etsin və bütün varlığı ilə Allahın əmrlərinə tabe olsun. [Tarixul-üməmi vəl-muluk, 6-cı cild, səh 196].

3-İmam Hüseyn (ə) İraqa gedərkən "Biyzə" adlı şəxsin evində Hürrə xitab etdi, bir xütbə oxuyub qiyamının hədəflərini açıqladı:"Ey camaat! Həzrət Peyğəmbər (s) buyurub: Allahın halalını haram, haramını halal sayan, Allahın əhdini sındıran, Peyğəmbərin sünnəsilə müxalif olan, Allahın bəndələri arasında günah, məsiyət və düşmənçilik yolunu seçən zalım hakimi görən hər bir müsəlman onun etdikləri müqabilində dili və əməli ilə müxalifət etməzsə Allah həmin zalım hakimin günahını (əzabını) o sükut edən şəxsə də yazar. Onun günahına şərik edər. Ey camaat! Agah olun ki, (Bəni üməyyə) Allahın itaətini tərk edib, şeytana tabe olmuşlar. Fəsadı yaymaqdadırlar. Allahın hökmlərini icra etmirlər... Mən camaatın hidayəti, müsəlmanların rəhbərliyi, bu fəsadların əleyhinə qiyam etməyə və babam Peyğəmbərin dinini ehya etməyə başqalarından daha çox layiqəm (uyğunam)" [Əl-Kamil fit-tarix, 4-cü cild, səh 48].

İmam Hüseyn (ə) Bəni üməyyə hakimiyyətinin bəzi fəsadlarından danışdı. İslam ümmətini əhatə edən fəsadlar və o fəsadların camaata etdiyi mənfi təsirlərdən danışdı. O fəsadların bəzilərinə işarə olunur:

**Sünnətlərin məhvi və bidətlərin rəvacı:**

İmam Hüseyn (ə) Məkkəyə daxil olduqdan sonra Bəsrədəki qəbilə başçılarına yazdığı məktubda buyurur: "Bu məktub vasitəsilə sizə sözlərimi deyirəm. Sizi Allahın kitabına və Peyğəmbərin sünnəsinə dəvət edirəm. Çünki, elə bir şəraitdəyik ki, peyğəmbərin sünnəsi aradan gedib, onun yerinə bidətlər yaranıb. Əgər mənim sözlərimi eşitsəniz sizi düz yola hidayət edəcəm..." [həmin mənbə, səh 200].

**Artıq haqqa əməl olunmur:**

İmam Hüseyn (ə) İraqa gedəndə Zi Həsm adlı şəxsin evində öz dostları və tərəfdarları arasında ayağa qalxdı və xütbə oxudu: "Baş verənləri görürsünüz. Zaman dəyişib. Pisliklər üzə çıxıb, yaxşılıqlar və fəzilətlər yoxa çıxıb. Fəzilətlərdən məhz qabın dibində qalan su qətrələri qədər qalıb. Camaatın yaşam tərzi çox aşağı səviyyədədir. Camaat zilləti (xar olmağı) qəbul etmək məcburiyyətindədir...

Haqqa əməl olunmadığını görmürsünüzmü?! Batildən çəkinmirlər! Belə bir vəziyyətdə yeri var ki, bir imanlı şəxs (canından keçib) Allahı mülaqat etmək arzusunda olsun. Belə bir fəsada bulaşan zillətli mühitdə ölümü səadət, zalımlarla yaşamağı isə əzab və bədbəxtlikdən başqa bir şey saymıram..." [həmin mənbə, səh 239].

**Dinin mahiyyəti dəyişib (məsx olub):**

Əməvi hakimlərinin hakimiyyəti və islam əleyhinə icra etdikləri siyasət camaatın dini huviyyətini məsx etdi, mənəvi dəyərləri aradan qaldırdı. İmam Hüseyn (ə) söhbətinin davamında buyurur: "Camaat dünyanın bəndəsidir. Dinə bağlılıqları zahirdədir və dildə dindən danışırlar. Maddi həyatları yaxşı olduğu müddətdə dinin ətrafındadırlar. Elə ki, başlarına bir iş gəldi, onlara müsibət və bəla üz verdi və sınağa çəkildilər, dindarlar azlıq təşkil edir.

**İmam Hüseynin qiyamının əbədi mesajı:**

İmam Hüseynin (ə) qiyamı məhz o zamana məxsus deyil. İmamın mesajı əbədidir. Dünya durduqca var və zaman və məkanın fövqündədir. Hər cəmiyyətdə haqqa əməl olunmazsa, batildən çəkinməzlərsə, sünnətlər məhv olub, yerini bidətlər doldurarsa, Allahın hökmləri dəyişilərsə (təhrif olarsa), hakimlər zorla və zülmlə camaatla rəftar edərlərsə, "cahiliyyət" xüsusiyyətləri hansı cəmiyyətdə olarsa o cəmiyyət Yezid cəmiyyətidir. Fəsadlarına qarşı çıxmaq, mübarizə və müxalifət etmək Hüseynə aid iş olacaqdır.

Müəllif: Rizayı Bircəndi.
Hazırladı və tərcümə etdi: Ə. Pərvanə.

# İMAM HÜSEYNƏ (Ə) OLAN MƏHƏBBƏT QURANA OLAN MƏHƏBBƏTDİR

*Bütün günlər, aylar, illər Allaha məxsusdur. Lakin Allah bu günlər, aylar içərisində fərqlər qoyub və bu günlərin, ayların bəzilərini üstün qərar verib. Məsələn Ramazan ayında bir ayə Quran oxumaq, bütöv bir Quran oxumağa bərabərdir. Bundan başqa ilin bütün günü qurban kəsmək olar, lakin Həzrəti İbrahim və Həzrəti İsmayılın məktəbinin davamı olan Qurbanı Zilhəccə ayının 10-a məxsus edib.*

*Allah Ümrə ziyarətini ilin bütün günlərində qərar verib, Həcc ziyarətini isə Zilhiccə ayının 9-dan məxsusi qərar verib. Bu deyilənlərin hamısı onu göstərir ki, bütün günlər, ayların bəziləri Allahın özü tərəfindən fərqlənib, üstün qərar verilib. Həmin aylardan biri İmam Hüseyn (ə) əzadarlığı günləridir, Məhərrəm ayının günləridir. Ən əsas da Kərbəla məktəbinin*



*möhür vurulan günü yəni Aşura günüdür ki, bu günlər Allah tərəfindən üstün günlər qəbul edilib.*

*Allah bu gün insanlar üçün böyük savab, böyük əcr, böyük cəza, böyük məktəb və dinə xidmtə üçün şərait qərar verib.*

*İslam peyğəmbəri (s) buyurur ki, İmam Hüseynə (ə) qarşı qəlblərdə bir istilik, mərhəmət var. İmam Hüseynə (ə) olan məhəbbət, eşq Qurana olan məhəbbətdir və eşqdir. Necə ki insanların qəlbi bərkiyəndə Quranın ayəsini qəbul etməzlər, yumşalanda da haqqı tez eşidərlər. Ona görə bu günlər insanların qəlblərinin istiləşən, yumşalan vaxtıdır. Bu günlərdən istifadə edib insanları yaxşı əməllərə dəvət edək, pis işlərdən çəkindirək, insanlara həqiqəti çatdıraq, onları maarifləndirək.*

*Xüsusən də ruhanilər, din təbliğatçıları düzgün bir formada xurafat və bidəti qarışdırmadan insanlara təbliğ edək. Əks təqdirdə savadsız insanlar gəlib bu günlərdə öz məqsədlərini insanlara çatdırıb, camaatı həqiqi dindən uzaqlaşdıracaq.*

*Hacı Əhliman Rüstəmov*



# İMAM SƏCCAD (Ə)

## HƏQİQƏTİ DİRÇƏLDƏN İLAHİ HÜCCƏT

**Kərbəla müsibətlərindən sonra qəm və qüssə içində olan bir mübarək insan nə zaman ki, su görərdi, əzizlərini xatırlayıb, ağlayardı. Ətrafındakılar qorxurdu ki, bu qəm-qüssəyə görə ona bir şey olacaqdır.**

**Bəs bu mübarək insan kim idi?**

Bu mübarək şəxs - İmam Səccaddır (ə). O, 38-ci hicri ilində dünyaya gəlmişdi, İmam Həsənin (ə) imamətliyinin son ilində 12 yaşlı yeniyetmə idi. Aşura hadisəsində isə atasının imamətliyinin 11 ilini dərk etmişdi. O, 23 yaşında İmam (ə) olur. 57 yaşında isə şəhid olur və bu dünyadan köçür.

İmamın (ə) gileyli sözlərindən onun dövründəki ağır vəziyyəti başa düşmək olur. O, buyururdu: “Məkkə və Mədinədə bizi sevən 20 nəfər yoxdur”.

İmam (ə) bu sözləri o zaman demişdi ki, oğlu İmam Baqirin (ə) dərslərinə çox sayda insan axışırdı. Onlar elm və mərifətə çox böyük maraq göstərirdilər.

İmamın (ə) 34 illik imamətliyi dövründə etdiyi çalışmaların nəticəsində cəmiyyətdə belə dəyişikliklər baş vermişdi. İmamın (ə), dövrünün rəhmsiz hakimləri ilə münasibəti, dəqiq təşkilatçılıq, onun xalqla rəftarı - bunların hamısı elə çalışmalar idi ki, sonradan İmam Baqir (ə) və İmam Sadiq (ə) bu mübarək fəaliyyətin bəhrəsini topladılar.

Həzrətin (ə) İbni Ziyadın və Yezidin məclisində söylədiyi sərt xütbəsi zalım hakimlərin özündə belə dəyişiklik yaratdı. Özündən hədislər qoşaraq onların zülmünü təsdiq edən alimlə İmamın (ə) görüşü- onun İslam dinindəki mühüm rolundan xəbər verirdi.

İmam (ə) öz tövsiyələrini dualar vasitəsilə dövrünün Əhli-beyt (ə) davamçılarına çatdırırdı. Onları zalımların sarayından uzaq olmağa dəvət edir və havayi-nəfslərinin ardınca getməkdən çəkindirirdi. İnsanları zalım hakimiyyətə qarşı çıxmağa və İmama (ə) itaət etməyə dəvət edirdi.

İmamın (ə) cəmiyyətdəki ab-havanı düzəltmək üçün etdiyi cəhdlər, İslam ruhunu dirçəltmək üçün etdiyi səylər çox əhəmiyyətli idi.

İmam Səccadın (ə) bu dövrdəki ən böyük rolu o idi ki, İslamın əsl təfəkkürünü, yəni tövhidi, nübuvvəti, insanın mənəvi məqamını, insanın Allahla rabitəsini cəmiyyətdə yayırdı. O insanlar ki, dindarlıqdan uzaq düşmüşdülər, maddiyyata qərq olmuşdular, İslam maarifini eşitməyə ehtiyac duyurdular.

Həzrət Peyğəmbərin (s) vəfatından sonra İslam hakimiyyəti elə insanların əlinə düşmüşdü ki, dindən xəbərləri yox idi. Xüsusilə də Müaviyyənin (lən) dövründə və sonra.

Hakimlərin fəsadı birinci alimlərə dəyirdi və sonra da insanlara sirayət edirdi. Dinin, imanın təlimi və Quran təfsiri qadağan edildiyi üçün insanlar etiqad və iman cəhətdən puç və boş idilər. İnsanların başı o qədər dünya işlərinə məşğul olmuşdu ki, mənəviyyat və Allahla dərin rabitəni zehnlərindən itirmişdilər.

Dəhşət burasında idi ki, hicri 50-110-cu illərdə ən məşhur müğənnilər, əyyaşlar Məkkə və Mədinədə idi. O dövrünün şairlərinin şeirlərini oxuyan zaman bunu aydın görmək olur.

Bu cür şairlərdən biri də Ömər ibni Əbi Rəbiyə idi və onun ölüm xəbəri Mədinəyə çatanda ümumi matəm keçirirlər. İnsanlar onun üçün göz yaşı tökürdülər.

İmam Səccad (ə) bu cür cəmiyyəti hidayət etmək üçün çox tədbirli davranır və moizə və duadan istifadə edir. Yavaş-yavaş cəmiyyətdə mənəviyyat ruhunu dirçəldir.

İnsanlara moizə edərək və onların yadına axirətlərini salaraq, insanları ayıltmağa çalışırdı. Bu dövrdə İmamın (ə) irsi olan “Səhifeyi-Səccadiyə”, “Münacati xumsi əşərə”, “Risaleyi-hüquq” kitabları insanları mənəviyyata dəvət edən kitablar sırasındadır.

İmam (ə) həm dua və həm də moizə yolu ilə insanları düz yola hidayət edir və onları İmam Baqirin (ə) dövrünə hazırlayırdı. Bəli, İmam Səccad (ə) həqiqəti dirçəldən İmam (ə) idi.

Deyerler.org

# İmam Hüseyn (ə) əzadarlarına tövsiyələr



***İmam Hüseynin (ə) əzadarlığının şərtləri və təlimləri (adabı) var. O təlimlərə əməl etmək və şərtlərə riayət etmək imam Hüseyn maarifinin (və mədəniyyətinin) cəmiyyət arasında düzgün formalaşmasına kömək edir. Əzadarlıq mərasimini aşura qiyamının hədəflərilə uyğunlaşması üçün həzrət Ayətullah Cavadi Amolinin "Kovsəri Kərbəla" kitabındakı göstərişlərinə xüsusi diqqət yetirmək lazımdır. Aydın məsələdir ki, belə göstərişlərə (tövsiyələrə) əməl etməklə Allahın və Əhli-beytin razılığını əldə etməklə yanaşı, camaat da bu məsələdə ifrat və təfritdən uzaq və doğru və təsirli (faydalı) əzadarlıq etmiş olurlar.***

1-İmam Hüseynin (ə) əzadarlığını qeyd eləmək bütün insanların (insanlığın) şərəf sənədidir. İslam ümməti onu fəxrlə yerinə yetirməli və qorumalıdır. Bu mərasim İslam dininin azuqəsidir və islam ümmətini peyğəmbərlərin silahı ilə silahlandırır. Onların düşmənləri isə camaatın cahil qalmasını istəyir ki, düzgün əzadarlıq etmək onların arzusunu da ürəklərində saxlayır, istədiklərinin həyata keçməsinə mane olur. Hazırda mədəniyyətə hücum çəkənlər çalışır ki, müsəlmanlar savadlı (təhsilli) olmasın və bildiklərinə əməl etməsinlər. Bu yolla müsəlmanları haqq yoldan sapdırmaq istəyirlər.

2-Əzadarlıqda xalis niyyətlə, Allahın razılığına xatir iştirak etməliyik ki, imam Hüseynə (ə) və Kərbəlaya olan borcumuzun bir hissəsini ödəmiş olaq. Heyətlərin hərəkəti "təzkiyə" ilə olmalıdır. Heç bir riyakarlığa yol verilməməlidir.

3-Çalışqan bir şəkildə Əhli-beytin əzadarlıq mərasimlərində, məxsusən aşura məclisində iştirak etməliyik. Yeniyetmələr və gənclərdən tutmuş orta yaşlı və qocalara qədər hər kəs bacardığı qədər bütün şəhərlər və kəndlərdə bir araya gəlib əzadarlıqda iştirak etsə Allah bilir bu işin savabı nə qədərdi!

Şəhərin böyükləri və hörmətli şəxsləri də imam Hüseyn (ə) məclislərində iştirak etməklə öz hörmətlərini artırmalıdırlar. Düzdür, onlar da gənclər kimi əzadarlıq məclisinin sonunadək qala bilməzlər. Həmçinin mümkündürsə əzadarlar müxtəlif məclislərdə iştirak etsinlər, bir məclisə getməklə kifayətlənməsinlər.

4-Heç kəs bir güşədə oturub mərasimə tamaşa etməməlidir. Əzadarlıqda iştirak etmək üçün bacardığını etməlidir. Əhli-beyt üçün göz yaşı axıtmalıdır. Şəhid üçün ağlamaq ürəklərdə şəhid olmaq arzusu yaradar. Əgər həzrət imam Hüseynin qiyamının sirri açılarsa məlum olar ki, niyə görə o həzrət üçün ağlamağa israr olmuşdur. Rəvayətdə bildirilir ki, sübh vaxtı imam Sadiqin məhzərində imam Hüseynin adı çəkiləndə həzrət həmin günün sonunadək gülümsəməzmiş. (Kamiluz-ziyarat, səh: 108)

Şəhidin qanı və onun üçün göz yaşı axıtmaq mərd insanın fitrətindədir. Bu üzdən həzrət Əli (ə) oğlu Hüseynə buyurdu: "Sən hər bir möminin göz yaşı axıtmağına (ağlamağına) səbəbsən"

5- Heç kəs (xüsusilə də gənclər) dəstəmazsız imam Hüseyn əzasına gəlməsin. Hər kəs dəstəmaz alıb sonra gəlsin. Dəstəmaz alarkən belə niyyət etməliyik: "İlahi pak olmaq üçün dəstəmaz alıram, pak olub imam Hüseynin təziyəsinə pak getmək istəyirəm".

6- İmam Hüseynin əzadarlığı ağıllı, sadə və bəzəksiz olmalıdı. Bacardığımız qədər təşrifatı (təmtəraq, təntənə) azaltmalıyıq. İmam Hüseyn məclisləri ruhu və etiqadı qidalandırmaq üçündür, məclisə təşrif buyuranlar belə xeyir-bərəkətlərdən faydalanmalıdır ki, qəflət və maddiyyətdən qurtulsunlar. İnsan təbiətən yaşadığı müddətdə toz-torpağa bulanır, özünü paklaşdırmağa məcburdur.

İmam Baqir (ə) "əmirəl-möminin" sözünün mənasını çox maraqlı və şirin izah edir: lüğətşünaslar "əmir" sözünü əmr edən mənalandırır. İmam lüğətşünasların əksinə onu "mire" (ميره) -yəni yemək- sözündən götürüldüyünü bildirir. Yusuf surəsində də bu maddədən fel işlənmişdir. "...Biz (onun vasitəsilə) ailəmiz bir daha ərzaq alıb gətirər, qardaşımızı qoruyar və (ərzağımızın üstünə) bir dəvə yükü də ərzaq artırarıq. Bu (əvvəlcə gətirdiyimiz) isə az bir ərzaqdır!" (Yusuf surəsi, 65-ci ayə).

وَ نَميرُ أَهْلَنا وَ نَحْفَظُ أَخانا وَ نَزْدادُ كَيْلَ بَعيرٍ ذلِكَ كَيْلٌ يَسير

Əli ibn Əbi Talib (ə) islam ümmətinə mənəvi qida verdiyi üçün "əmirəlmöminin" adlandırılıb. İmamın mənəvi təamı iman, elm və mərifətdir. O həzrət öz kamal sifətlərindən möminlərə və şagirdlərinə dadızdırıb. İmam Hüseyn məclisləri belə mənəvi təamlar üçün zəmin yaratmalıdır. Hərçənd ki, maddi təam (ehsan) verməyin də öz yeri və savabı var.

7- Zamanın tağutu ilə mübarizədə əsas ünsür "əmr be məruf və nəhy əz münkər", əməvilərin cinayətlərini minbərlərdəki söhbətlərdə və şüarlarda açıb deməkdən ibarətdir. İmam Hüseyn (ə) məclisinin sözçüləri və xətiblərin missiyası belə vəzifələri yerinə yetirməli və imam Hüseynin qiyamdakı hədəflərini açıqlamalıdır.

8- Şerlər və şüarlar faydalı və təsirli olmalıdır. Şerlər (mərsiyələr) Quran maarifi və Əhli-beyt təlimlərindən əxz olunmalıdır. İmam Hüseyn məclisində xütbə oxumaq, mərsiyə oxumaq, nohə və rozə demək və sinə vurmaq dini baxımdan çox böyük savabı var.

Həzrət Əli (ə.s) buyurub: camaat siyasi-iqtisadi səhnəyə gəldikləri zaman mən hökuməti qəbul etməyi özümə borc bildim. (Nəhcül-Bəlağə, 3-cü xütbə).

O həzrət 25 il xanəneşin (evdən bayıra çıxmayan, heç yerə getməyən) idi. Amma camaat Ələvi hökumətini qəbul etməyə hazır olduqları zaman imam da siyasət səhnəsinə varid oldu. İmamın dostu (yavəri) olmasaydı imam da bir kənarda qalacaqdı. Deməli, camaatın siyasi səhnələrə yığılması əsas rükndür. İmam Hüseynin qiyamını araşdırmaq camaatın iştirakında böyük rolu var. Bu üzdən imamlar Kərbəla hadisəsinin cəmiyyətdə deyilməsinə israr edirdi.

9- Heç kəs öz zövqünə uyğun əzadarlıq mərasiminə bir şey artırmamalıdır. Ağır dəmirləri qaldırmağın heç bir xüsusi mesajı yoxdur. Bu işlər azaldıqca əzadarlığın əzəməti çoxalacaq. Kiçik ələmlər, bayraqlar və yazılı parçalar əzadarlığın təziminə rəng qata bilər. Baxmaq lazımdır ki, imam Hüseyn məclisində hansı şeylər var, və yaxud olsa daha yaxşı olar və hansı şeylər yoxdur və yaxud olmaması daha yaxşıdır. Əzadarlıqda ayağıyalın olmaq, başa və sinəyə vurmaq kimi savabı çox olan və Allahın razı olduğu işlərin yerinə ağır dəmirləri çiyinlərimizdə daşımalıyıq?! Quran və Əhli-beytin təlimlərinə müvafiq şəkildə hərəkət etmək lazımdır. Düz və aydın yol açıq ola-ola niyə görə başqa yolda addımlamalıyıq?!

10- Heyətlər və əzadar dəstələrin hərəkəti elə tənzimlənməlidir ki, günorta azanı vaxtı bir və ya neçə yerdə (məscidlər və hüseyniyyələrdə) camaat namazı qılınsın. Əgər camaat namazını qılmağa imkan yoxdursa, namaz məsciddə və vaxtında qılınmalıdır. Beləliklə əzadarlıq əza sahibinin həyat tərzi ilə uyğunlaşmış olar. Əgər məclisdə ehsan verilirsə, namaz qılındıqdan sonra verilməlidir.

11- Ölkənin məsulları ilə həmkarlıq etmək və onlarla həmahəng olmaq lazımdır.

12- Əzadarlıq gecələrində, evlərdə də Kərbəla hadisəsi uşaqlara və nəvələrə deyilməlidir. Məxsusən uzun gecələrdə. Uşaqların gecə boyu faydasız filmlərə baxmağına mane olmaq lazımdır. İbrətamiz hekayələr uşaqların yaddaşına həkk olur. Bu üzdən, Kərbəladakı yaxşıların və pislərin hekayələrini onlara deməliyik. Uşaqlarımıza öyrətməliyik ki, su içdikdə "Hüseynə salam olsun" deməyi unutmasınlar.

13- İmam Hüseynin türbətinin ehtiramını qorumaq lazımdır. Dini göstərişlərə əsasən türbətin az miqdarını su ilə qarışdırıb yenicə doğulan uşağa dadızdırmaq lazımdır. Bu İslam dininin rəsmi hökmlərindəndir. Körpəyə İmam Hüseynin türbəti ilə qarışdırılmış suyu dadızdırmaq lazımdır ki, ömrünün sonunadək Hüseynçi və Kərbəlayi olsun, Hüseynin adından danışsın.

Həmçinin tövsiyə olunmuşdur ki, hər kəs bir ay oruc tutduqdan sonra, Fitr bayramında imam Hüseynin türbəti ilə (az miqdarda) iftar etsin.

14- İmam Hüseynin pak qanının ehtiramına xatir o məzlum imamı hər gün "Aşura" ziyarəti və ya "Varis" ziyarəti ilə ziyarət etməliyik ki, imam Hüseyn hörməti həmişəlik diri qalsın. Bu ziyarətləri hər kəsin oxuması lazımdır (yaxşıdır). Həm camaat oxuya bilər, həm də alimlər, fəqihlər, filosoflar, teoloqlar, ariflər, müfəssirlər və digər alimlər. "Ziyarəti aşura"-nın təlimlərindən qafil olmamalıyıq. Əhli-beytin dostları ilə dost, düşmənlərilə düşmən olmalıyıq.

Müasir dövrdə bəzi Yəzid kimilər müsəlman ölkələrində hökumət edirlər, öz millətini və milliyyətini havayı satırlar. Əgər həzrət Hüseyn indiki cəmiyyətdə yaşasaydı bütün dünyada müsəlmanların öldürülməsinə icazə verməzdi. Çünki, o məzlum imam zülmün qarşısında dayandı, Mən Yəzid kimi olan hər kəslə müxalifəm-dedi.

وَ عَلَى الْإِسْلَامِ السَّلَامُ إِذْ قَدْ بُلِيَتِ الْأُمَّةُ بِرَاعٍ مِثْلِ يَزِيد

"Camiə" ziyarətindəki bu cümlə də مُحَقِّقٌ لِمَا حَقَّقْتُمْ مُبْطِلٌ لِمَا أَبْطَلْتُم bu mənadadır ki, siz vəhy xanədanı haqq bildiyiniz hər maarifi biz də haqq bilirik, batil saydığınız hər şeyi biz də batil hesab edirik. Yəni siz hansı hökuməti bəyənməyib onunla mübarizəyə qalxdınızsa biz də mübarizə edəcəyik və siz qurduğunuz hökumətdən biz də quracağıq.

İmam Hüseynin ziyarətinin savabı digər imamların ziyarətinin savabından daha çoxdur. Onların hamısı vahid nur olmaqlarına baxmayaraq İmam Hüseynin qəbirini ziyarət etmək çox təkidlə sifariş olunmuşdur. Əgər İmam Hüseynin ziyarətinə getmək mümkün olmasa Aşura ziyarəti oxunsun. İmam Hüseyni yad etmədiyiniz bir gün keçirməyin. Səhər tezdən evdən çıxarkən üzü qibləyə dayanıb üç dəfə "Əssəlamu ələykə ya Əba Əbdillah və rəhmətullahi və bərakətuh" deyin. Bəzi böyük şəxsiyyətlər nəzir edirlər ki, filan müşkülümüz düzələrsə Ziyarəti-Aşura oxuyacağıq.

15- İmam Hüseynin əzadarlığının vaxtı olan məhərrəm ayı iki cəhətdən mübarək ramazan ayına bənzəyir.

**Birinci:** Hz. Peyğəmbər mübarək Ramazan ayı barədə buyurub: أنفاسكم فيه تسبيح "Ramazan ayında siz oruc tutanların nəfəsi təsbihdir". İmam Hüseynin əzadarlığı barədə də belə buyurulub: نَفَسُ الْمَهْمُومِ لِظُلْمِنَا تَسْبِيحٌ وَ هَمُّهُ لَنَا

عِبَادَة “Bizim məzlumiyyətimiz üçün qəmgin olan adamın nəfəsi təsbih hökmündədir və bizə görə kədərlənməsi ibadətdir”

**İkinci:** Ramazan ayının sonunda bu dua oxunur: “Ey Allah! Bu ilin orucunu bizim son oruc ilimiz qərar vermə! Əgər sonuncu ildirsə rəhmətini mənə şamil et, öz lütflərindən məni məhrum etmə!”

**Yaxşı olar ki, məhərrəm ayının sonunda da bu dua oxunsun: “Ey Allah! Bu il Məhərrəm ayındakı əzadarlığımı imam Hüseyn təziyəsində son iştirakım etmə! Əgər sonuncudursa rəhmətini bizə şamil et, bizi məhrumlardan qərar vermə! Amin ya Rəbbəl-aləmin!**

Müəllif: Ayətullah Cavadi Amoli.
Hazırladı və tərcümə etdi: Ə. Pərvanə.



# TASUA GÜNÜ niyə Həzrət Abbas (ə) xüsusilə xatırlanır?

***Tasua günü Məhərrəm ayının 9-cu günüdür ki, bizə Əbülfəzl Abbası xatırladır. Baxmayaraq o, Aşura günündə şəhid olmuşdur, lakin Abbasın aşiqləri ona Tasua günündən əza saxlayırlar. Çünki o, həmin günü elə bir dərs vermişdi ki, tarix boyu heç bir Əhli-beyt (ə) davamçısı onu unuda bilməz.***

İmam Sadiq (ə) buyurur: “Tasua o gündür ki, Hüseyn (ə) və tərəfdaşları Kərbəlada mühasirə olundular. Şam ordusu onların ətrafında halqa yaratdı və onları mühasirəyə aldı. İbni Mərcanə (lən) və Ömər ibni Səd (lən) ordusunun sayının çox olmasına görə sevinmişdi. Həmin günü Hüseyni (ə) və tərəfdaşlarını gücsüz adlandırmışdılar. Yəqin etmişdilər ki, heç kəs Hüseynin (ə) yardımına gəlməyəcəkdir. İraqlılar da ona yardım etməyəcəkdir. Buna görə də onu gücsüz hesab etdilər”.

Təbəri Tasua gününün əsri haqqında belə yazır: “Haris ibni Həsirə, Abdullah ibni Şərik Amiridən belə nəql edir: “Ömər ibni Səd (lən) car çəkdi: “Ey Allah ordusu! Atlarınıza minin və sizə müjdə olsun!”. Özü də insanlarla bir yerdə ata mindi. Əsr namazından sonra onlara (İmam Hüseyn (ə) ordusuna) tərəf hərəkət etdi. Hüseyn (ə) xeymənin qarşısında əyləşmişdi. Ayaqları ilə qılıncını halqaya almışdı. Başını dizinə qoymuşdu ki, bacısı Zeynəb (s.ə) ordunun səsini eşitdi və qardaşına yaxınlaşıb dedi: “Ey mənim qardaşım! Siz də yaxınlaşan bu səsi eşidirsinizmi?”. İmam Hüseyn (ə) başını qaldırıb buyurdu: “Peyğəmbəri (s) yuxuda gördüm ki, mənə buyurur: “Sən bizə tərəf gəlirsən””. Bacısı dedi: “Vay olsun mənə!”. Hüseyn (ə) buyurdu: “Bacı, Allahın rəhməti sənə olsun! Sakitləş!”. Abbas gəldi və dedi: “Ey qardaşım! Düşmən hərəkət etdi və bizə tərəf gəlir”. İmam (ə) ayağa qalxdı və buyurdu: “Ey Abbas! Ey qardaşım! Ata min və onlarla görüş. Soruş gör nə haldadırlar və nə olmuşdur? Niyə bizə tərəf gəlirlər?”. Abbas 20 atlı ilə bir yerdə onların qarşısına getdi. Züheyr ibni Qeyn və Həbib ibni Məzahir də orada idi. Abbas düşmənə dedi: “Nə olmuşdur? Nə istəyirsiniz?”. Dedilər: “Əmirin əmri gəlmişdir ki, sizə təklif edək, ya bizə boyun əyəsiniz, ya da sizinlə vuruşaq”.

Abbas dedi: “Mən Əba Əbdillahın (ə) yanından gələnə qədər tələsməyin. Dediklərinizi ona çatdırım”. Onlar dedilər: “Bu xəbəri ona çatdır və cavabını bizə ver”.

Abbas tələsərək qardaşının yanına gəldi və qardaşına bu xəbəri verən zaman, İmam (ə) ona buyurdu: “Onlara tərəf qayıt və əgər bacarsan, onları qaytar və döyüşü sabah səhərə qədər təxirə sal. Bu gecə Allah üçün namaz qılaq və Onu çağıraq. Ondan bağışlanma istəyək. Çünki O, yaxşı bilir ki, mənim Onun üçün namaz qılmaqdan, Kitabını tilavət etməkdən, dua və bağışlanma istəməkdən çox xoşum gəlir”.

Həzrət Abbas (ə) düşmənə tərəf qayıtdı və onlara dedi: “Ey insanlar! Əba Əbdillah (ə) istəyir ki, bu gecə qayıdasınız və bu haqda düşünsün”.

İmam Səccad (ə) nəql edir: “Ömər ibni Səd tərəfindən bizə bir elçi gəldi və elə dayandı ki, səsini eşidə bilək. O, dedi: “Biz sizə sabaha qədər möhlət veririk. Əgər təslim olsanız, sizi əmirimiz olan Ubeydullah ibni Ziyadın yanına aparacağıq. Əgər boyun qaçırtsanız, sizdən əl çəkməyəcəyik”.

Beləliklə, İmam Hüseyn (ə) Tasua gününün əsrindən Aşura gününün səhərinə qədər möhlət alır. O, bu zamanda öz hədəfini aşkar etmək istəyirdi. O, dini aradan apardıqlarını bəyan edəcək və zahirdə namaz qılmağın həqiqi din olmadığını hamıya aşkar edəcəkdi. Bəli, Aşura gecəsi İmamın (ə) Allahla sonuncu münacat gecəsi idi.

Tarixdə oxuyuruq: “Gecə gəlib çatdı və İmam Hüseyn (ə) bu gecəni rüku, səcdə, yalvarış və bağışlanma istəyərək keçirtdi. Tərəfdaşları o gecə arı zümzüməsinə bənzər zümzüməyə malik idilər”. /Deyerler.org/

# QURAN VƏ İMAM HÜSEYNİN (Ə) QİYAMI



**Sual: İmam Hüseyn (ə) qiyamı Qurani-kərimlə uyğundurmu?**

***Cavab:*** *İmam Hüseyinin (ə) qiyamını müxtəlif cəhətlərdən dəyərləndirmək mümkündür. Bu cəhətlərdən biri də imamın qiyamını Qurani-kərimin ayələrinə əsaslanaraq araşdırmaqdır. Quran araşdırmasında bu barədə bir neçə mövzuya: "zalımlara qarşı Quranın mövqeyi", "Quranın bu barədə müsəlmanlara əmr etdikləri", "Quranın zalımlarla rəftar metodu", "haqq və batil toqquşmasının nəticələri" və s, işarə etmək olar. Lakin bu kiçik yazıda, qeyd etdiyimiz sualı cavablandıraraq qiyamın, İmamın açıqladığı və Quran təlimlərində izah etdiyi bəzi amillərinə işarə edirik:*

**1. Allahın adını yüksəltmək və onun dininə kömək etmək:**

Cihad, Allahın razılığını qazanmaq, ictimai ədaləti bərpa etmək, şirk və bütpərəstlik kimi batil əqidələri məhv etmək, Allahın əmrlərini icra etmək və aldadılmış şəxsləri himayə etmək kimi amillərə əsasən vacibdir. Qurani-kərimdə buyurulur:

"Fitnə (müşriklərin fitnəsi) aradan qalxana qədər və din (ibadət) ancaq Allaha məxsus edilənədək onlarla vuruşun; əgər onlar (bu cür hərəkətlərə) son qoyarlarsa (siz də onlarla vuruşmaqdan vaz keçin!), çünki düşmənçilik ancaq zülm edənlərə qarşı olur."(Bəqərə surəsi, 193-cü ayə. )

İmam Hüseyn (ə) öz qiyamının səbəbi barədə buyurur: "Mən Allahın dininə kömək etmək və şəriətini izzətlə qorumaq üçün Allah yolunda cihad edib, Allahın adını ucalda biləcək ən layiqli şəxsəm".

**2. Yaxşı işlərə dəvət və pis əməllərdən çəkindirmək vasitəsilə ümməti islah etmək:**

İslam dininin maarifində fəsad və batil əməllərdən çəkinməklə yanaşı fəsadla məşğul olanları islah etmək prinsipi də var. Qurani-kərim iman və təqvanın kifayət etmədiyini bildirərək, Allah yolunda çalışmaq və insanları hidayət etməyin zəruriliyini bildirir: "Ey iman gətirənlər! Allahdan qorxun, Ona (Onun rəhmətinə və lütfünə qovuşmaq üçün) vəsilə (yol) axtarın. (Allah) yolunda cihad edin ki, nicat tapasınız!"(Maidə surəsi, 35-ci ayə)

Quran yaxşı işlərə dəvət və pis əməllərdən çəkindirən ümməti ən yaxşı ümmət hesab edərək buyurur: "Siz insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz (onlara) yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha inanırsınız."(Ali-İmran surəsi, 110-cu ayə)

Yaxşı işlər görməyi əmr etmək və pis əməllərdən çəkindirmək tarix boyunca bütün peyğəmbərlərin önəmli vəzifələrindən olub: "Biz hər ümmətə: "Allaha ibadət edin, Tağutdan çəkinin! – deyə peyğəmbər göndərmişdik..."(Nəhl surəsi, 36-cı ayə) İmam Hüseyin (ə) öz qiyamının səbəbi barədə buyurur: "Haqqa əməl olmadığını görmürsünüzmü?! Batilin qarşısı alınmadığını görmürsünüzmü?! Mən qanımın axması ilə nəticələnsə belə yaxşı işlərə dəvət etmək və pis əməllərdən çəkindirməyi qərara almışam."

Başqa cümlədə qardaşı Məhəmməd ibn Hənəfiyyəyə buyurur:

"Mən fəsad ya zülm etmək üçün qiyam etmədim, cəddim peyğəmbərin ümmətini islah etmək üçün qiyam etdim. Peyğəmbər (səlləllahu ələyhi və alih) və həzrət Əli (ələyhissəlam) kimi yaxşı işlər görməyə dəvət etmək və pis əməllərdən çəkindirmək istəyirəm"(Mənaqibi ali Əbi Talib, c: 4, səh: 89)

**3. Yezidin fasiqliyi və onun hökumətinin batilliyi:**

İslam rəhbərinin birinci şərti ilahi qanunlara əməl etməsidir: "Həqiqətən, Biz sənə Quranı haqq olaraq nazil etdik ki, Allahın sənə göstərdiyi (öyrətdiyi, bildirdiyi) ilə insanlar arasında hökm edəsən. Xainləri müdafiə edən (onların xeyrinə mübahisə aparan) olma!"(Nisa surəsi, 105-ci ayə)

Həm xalq, həm də İslam hökumətinin məmurları Allaha itaət etməlidirlər. Əks təqdirdə Allaha itaətdən uzaq hökumətlər Quran tərəfindən şiddətli danlağa məruz qalmalı olacaqlar: "Bu da Ad tayfasıdır! Onlar Rəbbinin ayələrini inkar etdilər, Onun Peyğəmbərlərinə qarşı çıxdılar (peyğəmbərlərin hamısı tövhid, təkallahlılıq təbliğ etdiklərinə görə bir peyğəmbərə qarşı çıxan kimsə bütün peyğəmbərlərə qarşı çıxmış olur), başlarının üstündə duran hər bir inadkar böyüyün əmrinə tabe oldular"(Hud surəsi, 59-cu ayə)

İmam Hüseynin (ə) buyuruqlarına əsasən Yezid və onun hökuməti heç bir İslami dəyərə malik deyildir. Həzrət bu barədə buyurur: "Yezid fasiq insandır, günahsız adamların qatilidir, şərab içəndir. Camaat şeytana itaət etmək məcburiyyətindədirlər. Alahın itaətini tərk ediblər və yer üzündə

fəsad törədirlər. Allahın haramın halal, halalını isə haram ediblər."(Biharul-ənvar, c: 44, səh: 381)

**4. Zalım sultana qarşı qiyamın vacibliyi:**

Quran təlimlərində zülm edənlərə rəğbət bəsləmək və kömək göstərmək qadağan edilmişdir: "Zülm edənlərə meyl etməyin, yoxsa sizə ataş toxunar (cəhənnəmlik olarsınız). Sizin Allahdan başqa himayədarınız yoxdur. Sonra sizə (dünyada da, axirətdə də Onun əzabından heç bir) kömək olunmaz!"(Hud surəsi, 113-cü ayə)

İmam Hüseyn (ə) öz qiyamının amillərindən birini də sitəmə və zalım sultanın əleyhinə etirazın vacibliyini bilir. Həzrət bu barədə buyurur: "Hər kim Allahın haramını halal, halalını isə haram edən, peyğəmbər sünnəsi ilə müxalifət edən və camaata zülm edən sitəmkar hakimi (rəhbəri) görüb bir söz deməsə və yaxud etiraz və qiyam etməsə Allah onu cəhənnəmə aparmağı lazım bilər."(Biharul-ənvar, c: 44, səh: 381)

Hazırladı: Ə. Şəhriyar

# SUÇLU KİMDİR, SUÇU NƏ?

***Fəlsəfədə çox vacib bir anlayış var - AKSİDENSİYA. Dilimizdə tarixən daha çox "ərəz" olaraq işlənib. Fəlsəfəyə ilk dəfə Aristotel tərəfindən gətirilən bu termin bir çox məsələləri, xüsusən aləmdəki ŞƏRin fəlsəfəsini idrak etməkçün olduqca vacib anlayışdır. Mənası nədir? Bir var əşyanın mühüm, substansional xassəsi, bir də var müvəqqəti, keçici, qeyri-mühüm xassəsi. İkinciyə aksidensiyalar deyilir.***

Söhbətin məğzi budur ki, aksidensiyalar birbaşa yaradılış deyillər. Məsələn, günəş, yer, və ağac. Yaradan bunları birbaşa yaradıb. Fəqət kölgə...? Kölgə, Yaradanın yaratdıqlarının (günəş, yer və ağacın) təbii törəməsidir. Tutalım, Allah günəşi, yeri və ağacı yaradır, kölgə isə bu üç yaradılışın təbii törəməsidir. Təbiidir. O ona görə ki, bu üçlük varsa, kölgənin yaranması nəinki təbii, hətta vacibdir. Kölgə Yaradanın birbaşa yaratdığı varlıq deyil, amma istənilən halda, o da bir varlıqdır.

Mən bir az da irəli gedirəm və düşünürəm ki, hətta növbənöv xırda qurdlar da, həşəratlar da əlahiddə yaradılış deyillər, hansısa yaradılışların təbii törəmələridir. Qurdlar adətən hansı şəraitdə yaranır? Mir-milçək, ağcaqanad hansı mühitdə peyda olur? Bunlar şərdilərsə də, birbaşa yaradılışlar deyil, hansısa yaradılışların təbii və qaçılmaz törəmələridir.

Çox dərin mövzudur, zəlzələlərin, təbii fəlakətlərin fəlsəfəsini anlamaq üçün də məncə, bu unikal yanaşmadır.

Qurani-Kərimdə belə bir ifadə var – sünnə. Tez-tez işlədilir və deyilir ki, filan şey ilahi sünnədi, yəni dəyişilməz qanundur. Məsələn, siz filan şeyi filan şeyə qatsanız, mütləq bəhmən şey yaranacaq, bu, ilahi sünnədi. Siz filan şeyi filan şeyə qatıb sonra deyə bilməzsiniz ki, ilahi, niyə bəhmən şey yarandı? Çünki bu, dəyişilməz qanundur və həyat bu qanunlarla idarə olunur. Eynilə də günəş, torpaq, ağac, kölgə misalındakı kimi. Ona görə də şəxsi həyatımızda və ümumiyyətlə, dünyamızda hər hansı bir şər yarandıqda Allah bizə "özünüz etdiniz" deyir. Bəs bu necə olur? Niyə günah bizim üstümüzə yıxılır? Biz dəliyik ki, özümüzü öz əlimizlə bəlaya salaq?

Başımıza bir bəla gəlir, dərhal alnımızı qırışdırıb deyirik ki, axı bunu kim elədi? Günahkar təbii ki, həmişə bir başqasıdır. Qismən haqlıyıq da. Axı adam özünü öz əliylə bəlaya salmaz ki. Fəqət, yuxarıda dediyim kimi, bəzi varlıqlar kölgə kimi aksidensiyadır, yəni əsas varlıq deyil, ağac deyil, torpaq deyil, günəş deyil, kölgədir; siz bu üçünü (ağac, torpaq, günəşi) bir araya gətirirsinizsə, kölgə öz-özünə var olacaq, dərhal var olacaq, hətta var olmaya bilməz! Üçlük yarandısa, kölgəni gizlətmək mümkün deyil, çünki kölgə bu üçlüyün ən təbii nəticəsidir.

Bəla, dərd, giriftarçılıq -bunlar da kölgə kimi aksidensiyalardır, biz bəlanı birbaşa yaratmırıq ki. Bəlanı törədəcək üçlüyü (dördlüyü, beşliyi) yaradırıq, ardınca bəla mütləq yaranır. Və bəlanı birbaşa yaratmırıq deyə, elə bilirik ki, o bizim əməyimizin bəhrəsi deyil. Elə bilirik ki, bunu bir başqası edib. Söyürük o naməlum "başqasının" qarasına. Tərslikdən başqası da arif adam çıxır, qayıdır ki, a bala, sən Allah, əl çək yaxamdan, torpağı, ağacı, günəşi curruyanda bilmirdin ki, ardınca kölgə də yaranacaq?

Məsələn, hələ orta məktəbdə oxuyan oğlumuzun altına maşın alıb qoyanda bilmiş olmuruq ki, əslində, bəlkə də biz indicə o məlum üçlüyün vacib bir qolunu yaratmaqdayıq. Digər qolu sürət... və, və... sonra da qəza- bəla!

Uşaqlarımızın beynini internetin ixtiyarına buraxanda, onlara heç bir film, kitab senzurası qoymayanda, əslində, böyük bir faciənin (üçlüyün) təməlini qoyduğunu da dərk etmirik. Bəli, pis kitab yoxdur, sadəcə lazımı yaşda, lazımı başda oxunmayan kitab var. Biz bunları anlamırıq, biz yalnız tövsiyə verə bilirik: intihar çıxış yolu deyil.

Heç kim zibilə oturduğu yerdə düşmür, əzizim. Aldadırıq özümüzü. Sadəcə araya zaman girir deyə fərqində olmuruq. Məsələ belədir ki, dediyimiz bu üçlüklər, dördlüklər bir anda, bir gündə yaranmır. Bir qolu, tutalım, 20 il qabaq, bir qolu 10 il qabaq yarana bilər, qalar üçüncü qolu. Son qol da bu gün yaranan kimi nəticə yaranar. Biz də saf-saf zarıyarıq ki, oturduğum yerdə zibilə düşdüm.

Bəlkə də indi hərəmizin əlində iki qolu çoxdan yaranmış, üçüncü qolunu gözləyən nə qədər potensial aksidensiyalar var...

Ölkəmizdə yaşanan bütün fəsadların da alt qatını tədqiq etsək, görəcəyik ki, heç biri birdən-birə, özbaşına olmayıb, onları yaradan hansısa üçlük (dördlük, beşlik) var və o üçlüyün bir qolunu da elə biz özümüz yaratmışıq. Yəni kimisə qınayanda çox da bərkdən qınamayaq, dolayısı ilə biz də günahkarıq. Necə? Sadəcə birini deyirəm: belə üçlüklərin bir qolu da, məsələn, xroniki laqeydlikdir, əlindən gələni əsirgəməkdir, uzanıb ancaq qaranlığı lənətləmək, qalxıb xırda bir şam yandırmamaqdır...

***İzah edə bildimmi? Necə deyərlər, insan ən çox etmədiklərinin günahkarıdır!***

İlqar Kamil



# BEHİŞTİN AÇARI

## NAMAZ NƏDİR? ALLAH BİZİM NAMAZIMIZDAN NƏ UMUR?

***Bəzilərinə görə, "namaz" sözü (Ərəb dilində bu dini ibadət növü "salat" (dua) adlanır ki, fars dilinə, oradan da azərbaycan dilinə "namaz" kimi keçmişdir) pəhləvi dilində – Orta dövr fars dili (e.ə 250, 65-ci ilə kimi) – "nəmak" (və ya "nəmaç") sözündən götürülmüşdür ki, bu da antik fars dilində "nəm" sözündən olub, (hörmət əlaməti olaraq) əyilmək və təzim etmək mənalarını ifadə edir (İbn Xələf Təbrizi, "Bürhani-Qate", tədqiq edəni: Məhəmməd Muin, c. 4, səh. 2167).***

Bəziləri, bunun "namay" və "az" sözlərindən ibarət olduğunu (nəmayi-az) və (Allaha) ehtiyacın göstəricisi mənasını ifadə etdiyini bildirmişlər. Bəziləri isə namaz sözünün qədim sanskrikt dilində namaste (salam) sözündən götürüldüyünü ehtimal etmişlər. Məhəmməd Məsud Novruziyə görə isə namaz sözü pəhləvi dilindəki "namaç" sözündən yaranmışdır. O da öz növbəsində antik fars dilində əyilmək və təzim etmək mənalarını ifadə edən "nəm" sözündən törəmiş və tədricən "salat" mənasında, yəni biz müsəlmanların xüsusi ibadət növü haqqında işlənmişdir. Bəzi tarixi mənbələrə görə, bəzi yeni müsəlman olmuş iranlılar ərəblərin irana hökmranlıq etdiyi dönəmlərdə "salat" sözünün yerinə "namak" sözündən istifadə edirmişlər və xalqı namaza səsləyərkən "əs-səlat" əvəzinə "ən-namak" ifadəsini işlədirmişlər. Avestada isə namaz "nəməngə" və ya "nəmə" (dua və salam mənalarında) kimi verilmişdir.

Lüğət kitablarında "namaz" sözünün digər mənaları isə bəndəlik, itaət, səcdə, pərəstiş, xidmətkarlıq və tabeçilik şəklində verilmişdir ("Dehxoda", c. 14, səh. 22731). Şəriət terminologiyasında isə namaz, bəndənin Allaha diqqəti və sitayişi kimi həyata keçirilən xüsusi hərəkət və zikirlərin məcmusuna deyilir.

"Namaz oxumaq" ərəb dilindəki "qiraət" sözünün qarşılığıdır. Namazın bir hissəsi "Həmd" və başqa bir surəni, eləcə də zikirləri oxumaqla, tələffüz etməklə keçdiyindən bu ibadəti yerinə yetirən haqqında "namaz oxuyur" ifadəsi işlənir. Lakin Quranda və rəvayətlərdə nə zaman namaz haqqında "iqamə" sözü işlənmişsə, dilimizə bərpa etmək kimi tərcümə edilmişdir.

Qurani-kərim namaz qılmaq üzərində çox təkidlə dayanmışdır. Belə ki, 46 dəfə "iqamə" sözü ilə müxtəlif ibarələrdə təkrarlanmışdır. Demək olar ki, Allahın bəndələrindən istədiyi də namazın "iqamə" olunmasıdır. Namazın "iqamə" olunması ilə bağlı bir neçə şərh verilmişdir:

### Namazın yayılması

Şübhəsiz, "iqamə"nin nümunələrindən biri namazı cəmiyyətdə yaymaqdır. Quranda oxuyuruq:

"O kəslər ki, əgər onları yer üzündə yerləşdirsək (onlara bir yer versək), namazı bərpa edər, zəkat verər, (insanlara) yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər" ("Həcc", 41).

Burada "iqamə"də məqsəd budur ki, yalnız özünüz namaz qılmayın, elə edin ki, namaz ayini cəmiyyətdə bərpa olunsun. İnsanlar şövqlə, rəğbətlə ona üz tutsunlar.

### Mükəmməl namaz

Bəzi alimlərə görə, Allahın "iqamə" sözü ilə namaza çağırdığı bütün ayələrdə məqsəd yalnız zahiri (ruhsuz) bir ibadət gerçəkləşdirmək yox, mükəmməl, bütün lazımi şərtləri özündə birləşdirən bir namaz qılmaqdır (Rağib İsfahani, Hüseyn ibn Məhəmməd, "əl-Müfrədat fi ğərib əl-Quran", səh. 491).

Bəzi təfsirçilərə görə, namaz qılmaq və ya qiraət etmək ifadələrinin əvəzində "iqamə əs-səlat" ifadəsinin

işlənməsi göstərir ki, namaz yalnız hərəkətlərdən və zikirlərdən ibarət deyil. Əksinə, onu tam olaraq bərpa etmək lazımdır. Belə ki, namazın təsirləri sizin həyatınızın simasında görünsün. Yalnız ağızda firlanan söz və ya əyilib-düzəlmək yox, əksinə namazın ruhu, yəni Allah qarşısında mütləq təslimçilik sizin həyatınızda büruz etməli və namazda Allaha tam diqqət yaranmalıdır (Bax: Məkarim Şirazi və başqaları, "Təfsiri-nümunə", c. 1, səh. 209; Məhəmməd Məhəmmədi İştihardi, "Namaz əz didqahi-Quran və etrət").

**Namazın davamlılığı**

Bəziləri "iqamə" sözünü namazın bərpasındakı davamlılıq kimi başa düşmüşlər. Yəni, namazı o adam bərpa edir ki, onu davam etdirsin, nəinki gah qılsın, gah yox. "Vay halına o namaz qılanların ki, onlar öz namazlarından qafildirlər (səhlənkarlıqları üzündən namazlarını vaxtlı-vaxtında qılmazlar)" ("Maun", 4-5).

"Məaric" Allah-Taala insanların nalayiq əməllərini sadaladıqdan sonra onların ləyaqətli xüsusiyyətlərini də qeyd edir və o cümlədən buyurur: "Namaz qılanlar istisnadır. O kəslər ki, daim namaz qılarlar" ("Məaric", 22-23).

Ayənin zahiri mənası davamlılıq ifadə edir. Yəni, həm vaxtında namaz qılırlar, həm də həmişə qılırlar. Onların namaz qılması müəyyən zamanla bitmir. Onların namazı həyat proqramlarının tərkib hissəsi və mükəmməldir. Buna görə də onları pisliklərdən çəkindirir. Prinsipcə, tərbiyəvi əhəmiyyəti olan bu və ya digər proqram yalnız davamlı olarsa, lazımi nəticəni verər. Belə ki, Peyğəmbərdən (s) nəql olunan bir hədisdə oxuyuruq: "Allah dərgahında ən sevimli əməl bəndənin az da olsa, davamlı olan işidir" ("Əl-Kafi", c. 2, səh. 82).

Quran ayələrinə ümumi bir baxış nəticəsində yekun olaraq demək olar ki, "iqamə" ifadəsində sözügedən bütün mənalar nəzərdə tutulmuşdur. Belə ki, mükəmməl namaz davamlı, diqqətlə və cəmiyyətdə iz buraxacaq şəkildə olmalıdır.

Şəhid Mütəhhəri bu haqda deyir: "Namazı ayağa qaldırmaq (iqamə) namazın haqqını verməkdir. Yəni, namaz ruhsuz bir bədən kimi qılınmamalıdır. Əksinə, namaz həqiqətən, bəndədə Uca Yaradana diqqət oyatmalıdır" ("Quranla tanışlıq" ("Aşenayi ba Quran"), "Həmd" və "Bəqərə" surələrinin təfsiri,
səh. 67-68).

Maqsud Sayıl

# İXTİRA VƏ KƏŞFLƏRİN FƏRQİ

Bütün ixtiralar varlığı və ya yoxluğu bizim onlara ehtiyac duyub-duymamağımızdan asılı olan fenomenlərə aiddir. Hətta belə bir deyim də vardır ki, ixtira ehtiyacdan doğur. İnsanın bir şeyə ehtiyacı olmadıqca onu ixtira etməyəcək. Bu baxımdan deyə bilərik ki, ixtiralar kəşflərdən fərqlidir.

Kəşf olunan şeylər o şeylərdir ki, onlar aləmdə var idilər, lakin biz onlardan xəbərsiz idik. Bir alimin ehtiyac duymadığı halda belə nə vaxtsa bir şeyi kəşf etməsi mümkündür. Amma mümkün deyil ki, bir alim nəyisə ixtira etmiş olsun və bəşər həmin günə qədər o şeyə ehtiyaclı olmasın. Edisonun işığı kəşf etməsi, o deməkdir ki, Edisonun var olmasından əvvəl də təbiət aləmində işıq mövcud idi. Sadəcə bəşər işığın varlığından xəbərsiz idi. Antoloji (varlığı tanıma) baxımdan ixtiralarla kəşflərin fərqi bundadır ki, kəşf olunan şeylər kəşf olmadan öncə də var olmuşlar, sadəcə bəşər onların varlığından xəbərsiz olub. Lakin ixtiralar o şeylərdir ki, bəşər onları ixtira etməmişdən öncə var olmamışlar.

Psixoloji baxımdan ixtiralar və kəşflər arasındakı fərq bundan ibarətdir ki, kəşflər bəşərin onlara ehtiyac duymadığı şeyləri də ehtiva edə bilər. Amma ixtiralar belə deyildir. İxtiraların bəşərin ehtiyac hiss etmədiyi şeyləri ehtiva etməsi mümkün deyildir. İxtiraçının bir şeyi ixtira etməsinin səbəbi budur ki, həmin şeyin olmadığı zamanlarda onun boşluğunu və həmin şeydən məhrum olduğunu hiss edir. Beləliklə bu boşluğu doldurmaq və onun yoxluğundan məhrum olan bəşəri çətinlikdən xilas etmək üçün həmin şeyi ixtira edir. Bu baxımdan dil, yazı, dövlət, hökumət bəşərin ixtirasıdır. Belə olduqları təqdirdə isə hər zaman onlara ehtiyac duyulur. Əgər bir gün onlara ehtiyac duyulmazsa, artıq onlar var olmayacaq, aradan gedəcəklər.

Bu gün cəmiyyətimizdə faytondan istifadə etmirik və fayton yoxdur, çünki ona ehtiyacımız da yoxdur. Fayton ixtiraçının niyyəti idi və ona ehtiyac duyulduğunca var idi.

Deməli, ixtiralar bizim ehtiyacımızdan doğan bir şeydir ki, həmin şeylərə ehtiyacımız olmazsa, onlar da olmayacaq.

Bu baxımdan deyə bilərik ki, din də insan ixtiralarından biridir. İxtira dedikdə dinin insanlar tərəfindən qondarılması nəzərdə tutulmur. Yəni insanlar dinə ehtiyac duymadıqca din mövcud olmur. Hətta mövcud olsa belə ona ehtiyac duyulmasa, din tezliklə aradan gedir. Dil və yazı kimi.

Qeyd etdiyim bu mənada dinin insan ixtirası olması onu süstləşdirə bilməz. Dilin, yazının ixtira olunması onlar üçün süstlük hesab olunarsa, o zaman dinin də ixtira olunması onun üçün süstlük hesab oluna bilər. Halbuki bu belə deyil, nə yazı və dilin, nə də dinin insanlar tərəfindən ixtirası onları süstləşdirə bilməz.

Beləliklə, bəşər tarixinin mövcud olduğu gündən onun yaşadığı hər bir mərhələdə dinin varlığı müşahidə olunubsa, deməli, bəşərin hələ də dinə ehtiyac duyduğunu anlamaq lazımdır. Həmçinin yazı və dil dünyada olduqca bəşərin bunlara ehtiyac duyduğunu anlamalıyıq...

Bəhruz Camal

# ALLAH YOLUNA DƏVƏT

**“(Ya Rəsulum!) İnsanları hikmətlə (Quranla, tutarlı dəlillərlə), gözəl öyüd-nəsihət (moizə) ilə Rəbbinin yoluna (islama) dəvət et...” (“Nəhl surəsi, 125- ci ayə)**

**Bu ayəyə diqqət etdikdə ilk öncə çağrının sanki peyğəmbərə (s), Əhli-beytə (ə) və peyğəmbərin canişinlərinə - məsum imamlara (ə) aid olduğunu görürük. İnsanları hidayət etmək missiyası onların öhdəsində olduğu üçün ilk növbədə ilahi əmri onlar yerinə yetirirlər. Müqəddəs şəxslərdən sonra din xadimləri gözəl ilahi əxlaqa yiyələnməli, ilahi elmlərdən faydalanmalıdırlar. Onlar, peyğəmbərlərin əmrlərini həyata keçirməklə bu sahədə kifayət qədər təcrübə qazanmalı və haqq yoluna dəvət etməlidirlər. Əks təqdirdə onların təbliğatının mənfi təsirləri ola bilər. Allahı dərk etməyən, dini anlamayan və özünü tanımayan şəxs xalqı dinə necə dəvət edə bilər!? Deməli, haqq yoluna dəvət etmək hər kəsin vəzifəsi deyil. “Əl-əmr bil məruf vən-nəhy ənil-münkər”in (2) bütün mərhələlərini icra etmək də hər kəsə vacib deyil. Digər sahələrdə olduğu kimi bu sahədə də müəyyən olunmuş qaydalar var. Bu barədə, din alimləri tərəfindən fiqh kitablarında qanunlar yazılıb. Bu yazıda, Nəhcül bəlağədən əl-əmr bil məruf vən-nəhy ənil-münkərə aid həzrət Əlinin (ə) dəyərli tövsiyələrindən bir qismini nəzərinizə çatdırırıq:**

1. Əl-əmr bil məruf vən-nəhy ənil-münkər etmək bu sahədə kifayət qədər məlumatı olan insanların missiyasıdır. Onun hansı şəraitdə uğurlu olacağını məhz məsumların buyurduqları hədislərdə görmək olar. Əli (ə) buyurub: “Cəhalət və nadanlıqla yaşayan, azğınlıqla ölən dəstədən Allaha şikayət edirəm. Doğru oxuduqda və onda heç dəyişiklik etmədikdə onlar üçün Allahın kitabından daha kasad və dəyərsiz mal yoxdur. Təhrif və dəyişiklik etdikdə (öz batil qərəzlərinə uyğun təvil etdikdə) ondan qiymətli və geniş yayılmış başqa bir mal olmaz. Onlar üçün yaxşı işlərdən pis və pis əməllərdən yaxşı olan iş yoxdur.” (3)

O həzrət, 88-ci xütbədə buyurur: “Onlar hər bir işdə öz dəlillərinə əsaslanırlar, heç bir peyğəmbərin və imamın yolunu davam etdirmirlər. Pislikdən (haram və şübhəli şeylərdən) çəkinmirlər. Şübhələrə əməl edib nəfsi istəklərinə tabe olurlar. Onların nəzərində yaxşı, özlərinin yaxşı bildikləri, pis isə özlərinin pis hesab etdikləridir. İlahi elmlərdə öz (səhv) rəylərini əsas götürürlər. Sanki onlardan hər biri (dini məsələdə) gördüyü hər bir şeydə (bəyan etdiyi hər bir məsələnin hökmündə) özü özünün qırılmaz iplərdən və möhkəm dəlillərdən yapışmış imamıdır (onlara istinad edir, öz nadürüst rəyinə əsasən ictihad etdiyi hər bir hökmün ilahi hökm kimi olduğuna inanır).” “Allahın çətinliklərə düçar etmək və işlərdə sınamaq ilə fayda çatdıra bilmədiyi kəs moizə və öyüddən bəhrələnməz. Ona qarşısından (bir-birinin ardınca) nöqsan və ziyan dəyər və nəticədə (nadanlıq



və azğınlığının artması nəticəsində) nalayiq və çirkini yaxşı, bəyənilən və yaxşını isə çirkin bilər.”(4)

2. İmam Əlinin (ə) din alimlərinə etdiyi tövsiyələrdən belə məlum olur ki, hidayət məqsədi ilə deyilmiş söz, onu söyləyənin əməli ilə uyğun olarsa daha çox təsirə malik olur: “Qadağan (haram) edilmişləri törədənləri bundan çəkindirin və özünüz də onları etməyin. Çünki siz özünüz bu işləri görmədikdən sonra pis əməldən çəkindirməyə məmur olunmusunuz.”(5) “Başqalarını nalayiq işlərdən çəkindirən, özü isə (başqalarını çəkindirdiyi şeydən) əl çəkməyən; (başqalarına) özü etmədiyi şeyləri əmr edənlərdən olma.”(6)

3. Təbii ki, haqq yoluna dəvət edən şəxsi çoxlu manıələr gözləyir. Bu zaman ətrafda ona ünvanlanan təhqirlərə məhəl qoymamalı və öz vəzifəsini yerinə yetirməlidir. Həzrət Əlinin (ə) öz övladı Həsənə (ə) yazdığı məktubda aşağıdakı mənalar diqqəti cəlb edir: “...Yaxşı işlərə əmr et. Pis işləri əl və dilinlə qadağan et. Öz səy və təlaşınla onları (pis işləri) yerinə yetirən kəsdən ayrıl... Allah yolunda, tənə vuranın tənəsindən qorxub çəkinmə. (Başqalarını yaxşı işlərə əmr edərək pis əməllərdən çəkindirməkdə və digər ilahi hökmlərin icrasında kiminsə tənə vurması, sənə boynunda olan vəzifəni yerinə yetirməyə mane olmasın.) Harada olmağın və hansı çətinliklə üzləşməyindən asılı olmayaraq haqq-həqiqət uğrunda çalış...”(7)

4. Bəzən bir insan, onun həyatında baş verən bir “qığılcım” vasitəsi ilə də haqqa üz tuta bilər. Lakin, təcrübələr göstərir ki, adətən əksər insanların hidayəti, tədrici və müəyyən mərhələlərlə həyata keçir. Bunun həmişə nəzərə alınmaması təəssüf doğurur. Halbuki, o, olduqca əhəmiyyətlidir. Həzrət Əli (ə) buyurur: “Onlardan (inkar edənlərdən) bəziləri pislikləri öz əl, dil və qəlbi ilə inkar edir. Beləliklə, o, gözəl xislətləri sona çatdırıb, kamala yetirib. Bəziləri əli ilə deyil,

dil və qəlbi ilə inkar edir. O, iki gözəl xislətdən yapışıb, birini (əl ilə inkar etməyi isə) zay edib. Bəzisi isə əl və dili ilə deyil qəlbi ilə inkar edib. O, üç xislətin ən şərəfli ikisini zay edib və bir xislətdən (qəlb ilə inkar etməkdən) yapışıb. Bəziləri isə nalayiq işləri dil, qəlb və əli ilə inkar etmir. O, dirilərin ölüsüdür. Bütün yaxşı əməllər və Allah yolunda cihad etmək, Əl-əmr bil məruf vən-nəhy ənil-münkərin müqabilində geniş dəryaya ağız suyu atmaq kimidir. (Çünki İslamın varlığı Əl-əmr bil mə'ruf vən-nəhy ənil münkər ilədir.) (8) "Ey möminlər! Kim zülm və sitəm edilməsini və xalqın xoşagəlməz və nalayiq işlərə dəvət edilməsini görsə və onu qəlbi ilə inkar etsə, (qiyamət gününün sorğu-sualından) qurtulub və (günahdan) uzaq olub. (Bu, insan əl və dili ilə həmin şeyi inkar və rədd edə bilməyəndə və ya qorxu və zərər yetirilməsindən amanda olmayan zaman üçündür. Ümumiyyətlə onun hökmü yerlərinin müxtəlifliyi ilə dəyişir.) Kim onu dili ilə inkar etsə savab qazanıb və onun mükafatı qəlbi ilə inkar edəndən çoxdur. Allahın sözünün (din, tovhid və itaətin) uca, zalımların sözlərinin (şirk, küfr, azğınlıq və günahın) alçaq və xar olması üçün onu qılıncı (vuruşma) ilə inkar edən kəs isə hidayət və nicat yoluna çatıb, (Allahın bəyəndiyi) düz yoldadır və yəqin və inam onun qəlbində nurlanıb."(9) "Əl-əmr bil məruf" (başqalarını bəyənilən yaxşı işlər görməyə vadar etməyi) və "Ən-nəhy ənil-münkəri" (çirkin işlərdən çəkindirməyi) tərk etməyin ki, (əgər bunları tərk etsəniz) pis əməlliləriniz sizə hakim olar, sonra isə dua edərsiniz (Allahdan onları sizdən uzaq etməsini istəyərsiniz amma) qəbul olmaz."(10) "(Cənnət əhlindən olmaq istəyirsinizsə, Allaha, Peyğəmbərə tabe olub camaatı yaxşı əmələ və sözlərə yönəldin, nalayiq işlərdən çəkindirin. Çünki) yaxşı əməllərə dəvət və pis işlərdən çəkindirmək Allahın sevdiyi xasiyyətlərdən olan iki əxlaqdır. (İlk baxışda heç bir ziyanı olmayacağı halda xeyir işlərə dəvət etmək və pis işlərdən çəkindirməkdən qorxmaq doğru deyil. Öldürüləcəyini və ruzisinin azalacağını ehtimal etmək də yersizdir. Əksinə, bilmək lazımdır ki,) bu iki iş, ölümü yaxınlaşdırmaz və ruzini azaltmaz."(11) "Hər kim yaxşı işlərə əmr etsə möminlərə qoşularaq onları gücləndirib. Pis (nalayiq) işləri qadağan edən kəs münafiq və ikiüzlülərin burunlarını torpağa sürtüb." (12)

Sonda nəzərinizə çatdırmalıyam ki, Allah yoluna dəvət etmək, "Əl-əmr bil məruf vən-nəhy ənil-münkər"- deyil. Allah yoluna dəvət etmək, dini söhbətlər, tədris və insanları hidayət edə biləcək bütün vasitələrlə həyata keçir. Lakin yaxşı işlərə əmr etmək və pis işlərdən çəkindirmək məhz əmr və çəkindirməklə reallaşır. Dil ilə yaxşı işlər görməyə əmr etmək və pis işlərdən çəkindirmək hər bir imanlı şəxsin vəzifəsidir. Həzrət Əli (ə) buyurur: "...Dilinizlə Allah yolunda cihad edin və "əl-əmr bil məruf vən-nəhy ənil-münkər"i tərk etməyin".

**Qeydlər:** 1- "Nəhl surəsi, 125- ci ayə. 2- "Yaxşı işlər görməyə dəvət (əmr) etmək və pis işlərdən çəkindirmək". 3- "Nəhcül bəlağə", 17-ci xütbə. 4- "Nəhcül bəlağə", 176-cı xütbə. 5- "Nəhcül bəlağə", 105-ci xütbə. 6- "Nəhcül bəlağə", 150-ci hikmət. 7- "Nəhcül bəlağə", 31-ci məktub. 8- "Nəhcül bəlağə", 374-cü hikmət. 9- "Nəhcül bəlağə", 373-cü hikmət. 10- "Nəhcül bəlağə", 47-ci məktub. 11- "Nəhcül bəlağə", 156-cı xütbə. 12- "Nəhcül bəlağə",31- ci hikmət.

Hazırladı: Ə. Şəhriyar

# İMAM ƏLİ (Ə) TƏFƏKKÜRSÜZ DİNİ, İDRAKSIZ HƏYATI BELƏ ANLADIR

**Həzrət Əli (ə) insanlığın kamillik nümunəsidir.**

Həzrət Əli (ə) insanlığın kamillik nümunəsidir. Bunu o Həzrətin (ə) əməllərində və sözlərində də tam şəkildə müşahidə etmək olur. Daima öz qısa, lakin əhatəli kəlamları ilə insanları heyrətləndirən İmam (ə) din, həyat, insanlıq barədə də mühüm tövsiyələr verib.

İmam (ə) dinin nə dərəcədə əhəmiyyətə malik olması, dinin bizdən nə istədiyini və insan həyatının hansı istiqamətdə dəyər qazandığını xatırladan bir kəlamında buyurub:

**"Ey insanlar fəhm (düşüncə) və agahlıq olmayan dindarlıqda fayda yoxdur!**
**Təfəkkürlə keçməyən ömürdə xeyir yoxdur!**
**Təqva ilə yanaşı olmayan ibadətdə fayda yoxdur!"**
(Məhasin 1/65)

İmam bu hədisdə 3 əsas fürsəti 3 mühüm amillə dəyərləndirib.

**1) Dindarlığı fəhm və agahlıqda** - Dini hökmləri iki hissədən ibarətdir: Əqidə və əməl bəhsi. Əməl bəhsində insan öz əməllərini elmdə ictihad etmiş alimin fətvaları ilə uyğunlaşdırmalıdır. Əqidə mövzusunda isə insan öz düşüncələrini Quran ayələri, hədislər və elm əhlinin verdiyi istiqamət işığında formalaşdırmalıdır. Həmçinin bütün bunlar idrak və düşüncə ilə yanaşı olmalıdır. Çünki insanın ucala biləcəyi zirvə onun məsələlərə olan idrakı qədərindədir. Bütün bu idrak və düşüncə də agahlıqla bərabər olmalıdır. Çünki din insanı yalnız fərd olaraq mükəlləf etmir, həmçinin ictimai varlıq olaraq da mükəlləf edir. İnsan öz islahı ilə bərabər Allah dininin digər fərdlərə yetişməsinə və cəmiyyətin islahında, yer üzündə ədalətin və insanlığın bərpasına çalışmalıdır. Həmçinin fitnə və hiylələr zamanı iblis xislətlərin əlində alət olmamalı, özünü və dinini qorumalıdır. Necə ki, bu peyğəmbərlərin vəzifəsi olub və onlar belə ediblər.

**2) Ömrü təfəkkürdə** - Təfəkkür insan həyatında çox önəmlidir. Bu yalnız insana xas bir dəyərdir. Hər şeydən öncə bu dəyər insanın əlindən tutur. İstər Allah barəsində ilkin, itidai təfəkkür olsun, istərsə də yaşadığı müddətdə həyatının digər sahələrində olsun. Hər bir sahədə insana ilkin istiqamət verən təfəkkürdür. Təfəkkür olmadığı təqdirdə insan dəryada istiqamətini itirmiş gəmi kimidir. Əsən "yellər" onu doğru olmayan istiqamətlərə aparar. Bu səbəbdən təfəkkür insanın həm düzgün dini ideologiyasının formalaşmasında, həm də həyatda sabit qədəmli olmasında çox mühümdür.

**3) İbadəti təqvada** - İbadət yalnız Allah üçün olan bir dəyərdir ki, bunlar iman, sevgi və qorxu əsasında olmalıdır. Bütün bunlar birlikdə insanda imanın ən üstün forması olan "təqvanı" formalaşdırır. Təqva əsasında olan ibadət isə insanın kamilləşməsində ən mühüm amildir. Əks halda o kəsdə heç bir mənəvi yüksəliş hasil olmaz, ibadəti ona fayda verməz.

Yaşar Nuriyev




# İSLAM VƏ İNSAN HÜQUQLARI

**Günümüzdə aktual mövzulardan biri də insan hüquqları məsələsidir. Uyğun mövzuya müxtəlif prizmalardan yanaşmaq olar və yanaşılıb. Lakin biz insan hüquqları məsələsinə yazıya seçdiyimiz ad əsasında münasibət bildirməyə çalışacağıq. Yəni həm İslam dininin məqsədi, bu dində insanın mövqe və dəyəri və sonda isə İslamın insana verdiyi hüquqlar barəsində söz açacağıq.**

**İslam, ümumiyyətlə monoteist dinlərin əsas prinsipi insanlara düzgün həyat tərzini göstərmək, onları kamala çatdırmaqdır. İslam dini bu istiqamətdə həm əqidəvi, həm əxlaqi və həm də şəri-hüquqi kodeks qarşıya qoyub.**



Qeyd edilən kodeks illuziyalara deyil, reallığa, həqiqətə əsaslanıb. Yəni İslamın məqsədi cəmiyyəti islah etmək, olduğundan ilk öncə bu sahədə mədəni-maarif fəaliyyətləri aparmış, sülh, sevgi dəyərləri ilə bütün insanları bir araya gətirməyə çalışmışdır. Lakin bu müqəddəs göstərişlərə uymayan şəxslərlə sərt davranmaya bilmir. Bu sərt davranmalar aqressivlikdən yox, əslində humanist prinsiplərdən irəli gəlir. Yəni Allah dərgahında insan o qədər müqəddəsdir ki, ən ləyaqətli bəndələrini - peyğəmbərlərini onun uğrunda qurban verir. Doğrudur, ilk baxışda peyğəmbərlərin din uğrunda əzaba qatlaşdığını görürük. Lakin azacıq diqqət yetirdikdə dinin insanlar üçün göndərildiyini, peyğəmbərlərin də insanların hidayət edilməsi istiqamətində işgəncələrə məruz qaldığını müşahidə edirik. Əgər Allah insanın hidayəti - doğru yola yönəlməsindən ötrü hətta ülul-əzm peyğəmbərlərini qurban verirsə, şübhəsiz eyni məqsədlə insanın özünü də tənbeh edə bilər. Ona görə də dinin hər hansı prinsiplərinə, hökmlərinə hidayət baxışı ilə baxılmalıdır. Belə bir halda bir çox tərəddüdlər imana çevirlə bilir.

İnsanı ən yaxşı tanıyan Allahdır. Onun haçan müti və haçan üsyankar olduğunu bilir. Yəni insanın psixologiyası Allaha tam aydındır. Ona görə də yalnız müjdələrlə onun emosiyalarını təhrik etmir, paralel olaraq inzarla - hədələrlə onu kontrol etməyə çalışır. İnsanın yaradılmasında əsas məqsəd onun doğru yola yönəldilməsi olduğundan Allah-taala bəzən ən sərt hədələrlə onun uçruma getməsinin qarşısını almağa çalışır. Həkim xəstəyə xoş olmasa da xəstənin həyatını xilas etməkdən ötrü onun üzərində ən ağır cərrahiyə əməliyyatı aparmağa, ayağını-əlini kəsməyə məcbur olur.

İslam dinində insan varlıqların ən şərəflisi, yer üzündə Allahın canişini kimi təqdim edilir. Ümumiyyətlə, Allah-taala yer üzündə hər bir şeyin insan üçün yaratdığını bəyan edir (Bəqərə, 29). Bu, insana ən humanist yanaşmadır. Lakin Allah sevimli bəndəsinin bu "hər şey"in içində itib-batmasını istəmir. Dəniz, dağ insan üçün yaradılıb, amma Allah insanın özünü dənizə atıb boğmasına, dağdan yuvarlanaraq özünə qəsd etməsinə icazə vermir.

Azadlıq insanın ən müqəddəs hüququdur. Lakin azadlıq insana xəyanət olunarkən yox, xidmət edərkən dəyər tapır. İnsan yaradılış baxımdan azaddır, istədiyi addımı ata bilər. Lakin İslam ona hər addımı atmağa icazə vermir. İnsan ixtiyarı ilə zəhər yeyə bilər, lakin din onu zəhər yeməməyə məcbur edir.

Deməк İslamda insana verilən hüquq onun hidayəti çərçivəsindədir. Bunun xaricində olan heç bir hüquqdan söz gedə bilməz. Ümumiyyətlə insanın hidayətinə qarşı olan hər hansı bir addım qanun yox, cinayət hesab edilməlidir.

Həmçinin, hansısa bir qanun qəbul edilərkən həm də insanın mənəvi qatı da nəzərə alınmalıdır. Mənəviyyat insanın şən və azad yaşaması üçün çox zəruri bir amildir. Bu arada çox dartışdırılan hicab məsələsinə baxaq. Hicab bəzilərinin düşüncəsinin əksi olaraq qadına azadlıq verir, ona hüquqlarından

istifadə etməyə imkan yaradır. Həm də hicab qadının ifrat şəhvani meyillərini kontrol edərək onu mənəvi səmtə yönəldir. Açıq-saçıqlıq isə qadını daha çox nəfsinə tabe etdirib düşüncə, təfəkkür tərzini, mənəviyyatını sarsıdır.

Yaxud edam məsələsinə nəzər salaq. Dində bu hökmün icra edilməsi zahirən bəzilərini narahat edir. Lakin bunun fərqinə varmırlar ki, onların silah istehsal edən zavodları əslində dar ağacı istehsal edir.

Əvvəldə qeyd etdiyimiz kimi İslam dinində İNSAN müqəddəsdir. Lakin bütün insanlıq hisslərini itirmiş, şəfqətsiz ikiayaqlı insan sayıla bilməz. Qurani-Kərim belələrini insan saymır, hətta onları heyvandan aşağı hesab edir. Misal olaraq, onlarla azyaşlı uşağa, qıza təcavüz edən, ailələri ləkələyən, kobudcasına ictimai asayişi pozan, uyuşdurucu maddələr paylayaraq milyonlarla gəncin həyatına son qoyan bir şəxsi cəzalandırmaq, pis əqidəli digər şəxslərə ibrət olsun deyə onu gur bir yerdə edam etmək insan hüququna ziddirmi?

Əgər qeyd edilən cinayətləri törədən şəxsi cəzalandırmaq insan hüquqlarını pozmaqdırsa, bir şəxsin cinayətinə görə bütöv bir ölkəni bombardman etmək, milyonlarla insanı (Əfqanıstan, İraq kimi) vəhşicəsinə qətlə yetirmək nə adlanır? Milyonlarla insanı (məzlum Qəzza əhalisi kimi) illərlə ən ilkin hüquqlardan məhrum edilməsinə nə ad verilməlidir?

İnsan hüquqlarından dəm vuran hegemon ölkələrdə inşa edilən silah zavodları insanlığa yönəlməmişdirmi? O silahların hər biri bir dar ağacı deyilmi? Quantanamo, Əbu-Qureyb kimi insanlığa zidd həbsxanalar və həmin həbsxanalarda ən ağır işgəncələr hansı dəyərlərə sığır?

Niyam Aqil

# İslam dini qidaların halal olması ilə yanaşı pak olmasını da tələb edir

**Halal və pak qidalardan istifadə edək!**

Qidalarla bağlı bu zərif nöqtəyə hamımız diqqət və əməl etməliyik. Qida insan həyatında çox böyük rola malikdir. Allah Qurani- Kərimdə bu məsələni bizə belə tapşırır:

"Belə isə, insan öz yeməyinə diqqət etməlidir!" (Əbəsə 24)




Hədislərə əsasən yeddi nəslə qədər təsir edən qidaya həqiqətən çox diqqət etməliyik. Yeməyimizin ən əsas meyarı halal və pak olmasıdır. Yəni:

1-Hər hansı bir haram yollar ilə əldə edilməsin. Məs: oğurluq, haram pul vasitəsi ilə alınan, kiminsə haqqını yeyib alınan və s. olmasın.

2-Şəriətdə qadağan olunmuş qidalardan olmasın. Məs: Donuz əti, şərab, dalaq və s.

Lakin mənim toxunmaq istədiyim incə məsələ bundan ibarətdir ki, halal olmasından əlavə qidanın pak olmasına daha çox diqqət etməliyik. Quranı diqqətlə oxuyan zaman Allahın neçə yerdə bizə pak qida yeməyimizi tapşırdığını görərik. Məs:

Ey insanlar, yer üzündə olan şeylərin halal paklarından yeyin.." (Bəqərə 168)

"Ey iman gətirənlər, ruziniz etdiyimiz pak şeylərdən yeyin..." (Bəqərə 172)

"Buna görə də Allahın şəriət baxımından halal və zatən pak olaraq sizin ruziniz etdiyi şeylərdən yeyin, istifadə edin və əgər yalnız Ona ibadət edirsinizsə, Allahın nemətinə şükr edin." (Nəhl 114)

Gördüyünüz kimi bu ayələrdə və bunun kimi bir çox ayələrdə halal ruzinin kənarında pak ruzi də qeyd edilib. Mövzunun daha aydın olması üçün bir neçə misal qeyd etmək olar. Pak qidaların nümunələri: Hər fəslə uyğun təbii meyvə və tərvəzlər, inək, qoyun, toyuq və s. ətləri,təbii və bulaq suları,qatıq, süd, pendir, şor və s. süd məhsulları və s. misal çəkmək olar.

Gəlin özümüz və övladlarımız Allahın halal və pak ruzilərindən qidalanaq. Öz istədiyimiz şəkildə deyil, Allahın istədiyi şəkildə həyatımızı yaşayaq! Düşünərək və Allahın göstərişləri əsasında yaşamaq ən yaxşı yaşayış tərzidir. Qiyamət günü aşağıdakı ayəni eşitmək ümidi ilə Allaha əmanət olun:

"Etdiyiniz yaxşı əməllərin müqabilində mükafat olaraq yeyin və için, sizə nuş olsun!" (Mursəlat 43)

Musa Hüseynli

# XƏBƏRÇİLİK

**Onların pıçıltı ilə qulağa dedikləri sözlərin  çoxunda xeyir və fayda yoxdur.**
**(“Nisa” surəsi, ayə 114.)**



***İnsan ictimai varlıq olduğuna görə onu cəmiyyətdən, toplumdan kənar təsəvvür etmək mümkünsüzdür. Bəlkə də bu təbiətən cəmiyyəti sevdiyinə, yaxud ehtiyaclarını toplumda qarşılaya bildiyinə görədir. Hər halda iri şəhərlər, ictimai yaşayış mərkəzləri və başqaları bu iddianın göstəricisidirlər.***

***Ancaq insanın toplumda yaşaması ona xeyir verdiyi kimi zərər də verə bilər. Belə ki, əksər hallarda insanlar şəxsi mənafeləri üzrə hərəkət etdiklərinə, özünəməxsus səliqə nümayiş etdirdiklərinə və ədalətsiz rəftarlarına görə zaman-zaman toqquşmalarla, münaqişələrlə üzləşməli olurlar. Bu halda xeyirxah, alicənab insanların vəzifəsi münaqişə tərəfləri arasında sülh yaratmaq, insidentin daha ciddi və ictimai hal almamasından ötrü***

Amma təəssüflər olsun ki, bəziləri əxlaqi çatışmazlıqlar səbəbindən bunun tam əksinə hərəkət edərək vəziyyəti daha da gərginləşdirirlər. Məsələn, xəbərçilik etməklə iki nəfər arasında ədavət yaradırlar, yaxud olmayan şeyi birindən digərinə aparmaqla münaqişəni həlledilməz vəziyyətə gətirə bilirlər.

Bir sözlə, xəbərçilik cəmiyyəti parçalayan, fəsada, qanlı toqquşmaya yol açan başlıca amillərdəndir. Hədislərimizdə də xəbərçilik ciddi məzəmmət edilmiş, bu xislətə düçar olan şəxslər bəşəriyyətin ən pis fərdi kimi anılmışdır:

Allahın Rəsulu (s) səhabələrindən soruşdu: Sizə ən pis adamlardan xəbər verimmi?

- Bəli, ey Allahın Rəsulu (s)!

- Onlar xəbərçilik etməyə çalışan, dostların arasına ayrılıq salan və pak insanlarda eyb axtaranlardır.

(“Vəsailuş-şiə”, c. 8, səh. 616.)

Bu yöndə nəql edilmiş hədislərə istinadən deyə bilərik ki, xəbərçilik, söz gəzdirmək böyük günahlardandır;, çox təhlükəli bir iş olmaqla bərabər, dünya və axirətdə ziyana səbəb olan amildir. Bu əmələ bulaşmış və insanlar arasında ədavət, ayrılıq yaradan kəslər əməllərindən tövbə edib dəymiş xəsarəti ödəmədikləri halda cənnət onlara haramdır.

**Xəbərçini gözləyən təhlükə**

Xəbərçiliyin cəmiyyət üzvləri arasında ixtilaf və bədbinlik yaratdığını, düşmənçilik və ədavət toxumu səpdiyi, bəzən də ailələri, dostluqları dağıtdığı heç kəsdən gizli deyil. Bu üzdən xəbərçilik xoşagəlməzdir, əlbəttə islahedici, qurucu, xeyir niyyətlə edilən xəbərçiliklər istisnadır.

Xəbərçiliyin kökündə hər nə durursa dursun, bu xoşagəlməz sifət həllini tapmayınca ona yiyələnən şəxsə bir çox məhrumiyyətlər gətirəcək:

Xəbərçiyə heç kəs etimad etmir; təsəvvür edin bir nəfər dostunuzdan sizə söz çatdırır və arada gəzənlik edir. Deyir ki, dostunuz filan mövzuda sizə müxalifdir. Sözsüz ki, siz də bu xəbərdən xoşhal olmayacaq, əksinə narahatlıq keçirəcəksiniz. Bu halda narahatlığınızın amili xəbərçi olduğuna görə ona qarşı münasibətiniz heç də müsbət olmayacaq, dilə də gətirməsəniz, ürəyinizdə onu qınayacaqsınız.

Amma xəbərçinin sözünün yalan olduğu və ya bir az da özündən dediyi üzə çıxsa necə? Daha ona güvənmək, sözünə etimad etmək olarmı? Xeyr!

Xəbərçi cəmiyyətdən təcrid edilmiş, sevilməz kəsdir; çünki münaqişə tərəfləri onun sözünü dinləyib ixtilafa düşüblər. Çox vaxt tutduqları işdən peşman olurlar və aralarında ayrılıq salan şəxsə lənət deyirlər, camaatı bu cür adamlarla ünsiyyət qurmaqdan çəkindirirlər.

**Xəbərçilik xisləti necə yaranır?**

Əxlaq elmində qeyd edilir ki, bir çox xoşagəlməz xüsusiyyətlər digər xoşagəlməz xüsusiyyətlərdən doğur, sanki bunlar arasında qırılmaz bağ var və zəncirvari olaraq bir-birinə bağlıdırlar. Odur ki, insanda hətta bir pis sifətin olması onu süquta apara bilər. Digər tərəfdən bir yaxşı sifət insanı kamala çatdıra bilər.

Deməli, xəbərçiliyin də kökündə bir sıra xoşagəlməz xüsusiyyətlər, o cümlədən paxıllıq durur. Paxıl insan başqalarının dinc həyatından məmnun deyil, dostların əl-ələ verib bir işi tez vaxtda görməsindən narahatdır, ailə üzləri arasındakı sevgi və səmimiyyətdən əzab çəkir... Hər necə olursa olsun xəbərçilik etməklə bu düzəni pozmaq istəyir. Bu da onun dincliyi deməkdir!

Bundan başqa dünyapərəstlik, ikiüzlülük, sadizm

(Zorakılığa meyl etmə), yalana vərdiş də xəbərçiliyin əsas amillərindəndir.

**Problemin həlli yolu**

Sözügedən problemin həllindən ötrü ilk növbədə yuxarıda qeyd edilən amilləri araşdırmaq lazımdır. Bir mənalı olaraq, xəbərçilyin həsəd, ikiüzlülük, sadizm, qisasçılıq hissi kimi başlıca amilləri məhv edilməyincə, bu xisləti tərk etmək mümkün deyil.

Bəli, güclü iradə və qəti qərar sayəsində vəziyyəti kontrol etmək, yaxud müvəqqəti aradan qaldırmaq olar, amma yeri gəldikdə özünü biruzə verəcəkdir.

Xəbərçilik xislətini özündə müşahidə edənlər bundan qurtulmaq üçün xəbərçilik və söz gəzdirməyin mənfi təsirlərini bir daha gözdən keçirməli; cəmiyyət və ailə mühitində nə qədər viranedici olduğuna, bu yolla hər kəsə bulaşdığına, həmçinin ona mürtəkib olanın dünya və axirətdə hansı əzablara qatlaşacağına diqqət etməlidir.

Xəbərçi şəxslər, xüsusən də buna adət edənlər, bu əməli ictimai fəsadlarını, ilahi cəzalarını daima xatırlamalıdırlar. Mütəmadi olaraq özlərinə təlqin etməlidilər ki, xəbərçiliyin sonu budur! Yoxsa şeytan vəsvəsələri və nəfsi istəkləri onları rahat buraxmayacaq.

İmanlı insanların xəbərçi şəxslərlə rəftarı də həlledici yollardan biri ola bilər; dediklərinə etina etməmək, özündən uzaqlaşdırmaq kimi rəftarlar nəticəsində tezliklə anlayacaqlar ki, sözlərinin müştərisi yoxdur, əksinə camaatın bədbinliyinə, nifrətinə tuş gəlirlər. Bu da sözügedən çirkin əməllə bağlı iradələrini zəiflədəcək.

Əlbəttə, xəbərçilik etmək, söz gəzdirmək və ara vurmağın kökündə psixoloji problemlərin olması da istisna deyil.

Xəyal Tofiqoğlu

# DİLİMİZİ QORUYAQ

## Peyğəmbəri-Əkrəm (s): "İnsan yalnız dilini saxlamaqla imanın həqiqətinə nail olar"

**İnsanı Allah dərgahına yaxınlaşmaqdan saxlayan, hüzuri-qəlb yaranmasına mane olan səbəblərdən biri də faydasız, zəruri olmayan sözlər danışmaqdır.[1]**

Mütəal Allah insana nitq qüvvəsi vermişdir ki, öz ehtiyaclarını aradan qaldırsın. Əgər ehtiyac qədərində danışarsa, bu böyük nemətdən düzgün istifadə etmiş olur. Amma əbəs, zəruri olmayan işlərə sərf edərsə, Allahın bu böyük nemətini zay etmiş olur. Bundan əlavə, çox danışmaq, hətərən-pətərən sözlər demək insanın fikrini pərakəndə və pərişan edir, nəticədə, Mütəal Allaha diqqət yetirib hüzuri-qəlb tapa bilmir. Məhz buna görə də çox və faydasız sözlər danışmaq hədislərdə məzəmmət olunmuşdur. Peyğəmbəri-Əkrəm (s) buyurur: **"Çox danışmaqdan çəkinin, yalnız Allah zikrindən başqa. Çünki çox danışmaq – Allah zikrindən başqa – qəlbin qəsavətli olmasına (bərkiməsinə) səbəb olur. Allahdan ən çox uzaq olan insanlar qəlbi qara olanlardır."[2]**

Əmirəl-möminin Əliyyibni Əbitalib (ə) buyurur: **"Dilini saxla və sözlərini say ki, xeyir deməkdən başqa bir sözün olmasın."[3]**

Peyğəmbəri-Əkrəm (s) buyurur: **"Danışıq üç cürdür: Faydalı danışıq, sağlam danışıq və faydasız danışıq. Faydalı danışıq Allah zikrindən ibarətdir. Sağlam danışıq Allah tərəfindən sevilən danışıqdır. Faydasız danışıq isə camaat barəsində deyilən əbəs (lazımsız) sözlərdir."[4]**

Peyğəmbəri-Əkrəm (s) yenə buyurur: **"Dilini saxla. Çünki bu, nəfsin üçün ən yaxşı hədiyyədir. (Sonra buyurdu) İnsan yalnız dilini saxlamaqla imanın həqiqətinə nail olar."[5]**

İmam Rza (ə) buyurur: "Üç şey dərrakə və düşüncənin nişanələrindəndir: Səbirli olmaq, elm, sükut. Sükut hikmət qapılarından olan bir qapıdır. Sükut məhəbbətə səbəb olur və hər bir xeyrə yol göstərir."

Əmirəl-möminin Əliyyibni Əbitalib (ə) buyurur:

**"Əql kamil olduqca söz (danışıq) azalar."[6]**

İmam Cəfər Sadiq (ə) buyurur: **"Heç bir ibadət sükutdan və Allah evinə (həccə) piyada getməkdən fəzilətli deyildir."[7]**

Peyğəmbəri-Əkrəm (s) Əbuzərə buyurdu: "Sənə uzun müddətli sükutu tövsiyə edirəm, çünki bu vasitə ilə şeytan səndən uzaqlaşar. Sükut dini qorumaq üçün yaxşı bir köməkdir."[8]

Bir sözlə, Allah dərgahına doğru seyr etmək istəyən şəxsə vacibdir ki, öz dilini tamamilə nəzarət altına alsın və ölçülüb-biçilmiş söz danışsın, çox danışmaqdan ciddi şəkildə uzaq olsun, dünyəvi işlər barəsində onun həyatı üçün zəruri olan miqdarda danışsın. Bunun əvəzində dilini zikr, elmi və faydalı mətləblərə, ictimai məsələlərə məşğul etsin.

Böyük ustadımız rəbbani arif əllamə Seyyid Məhəmməd Hüseyn Təbatəbai (rəhmətullahi əleyh) buyururdu: "Mən sükutdan çox dəyərli nəticələr müşahidə etdim. Qırx gecə-gündüz sükut edin, zəruri olan işlərdən başqa bir şey danışmayın, fikr (təfəkkür) və zikrə məşğul olun ki, sizin üçün qəlbi səfa və nuranilik hasil olsun."

---


[1] "Müstədrəkul-vəsail", 3-cü cild, səh.82
[2] "Biharul-ənvar", 71-ci cild, səh.281
[3] "Biharul-ənvar", 71-ci cild, səh.281
[4] "Biharul-ənvar", 71-ci cild, səh.289
[5] "Biharul-ənvar", 71-ci cild, səh.298
[6] "Biharul-ənvar", 71- ci cild, səh.290
[7] "Biharul-ənvar", 71-ci cild, səh.278
[8] "Biharul-ənvar", 71-ci cild, səh.279

# QEYRİ-MÜSƏLMANLARIN AXİRƏT DÜNYASI



**Bütün müsəlman alimləri yekdilliklə islam dinindən öncə gəlmiş ilahi dinləri qəbul edir və zamanələrinin dini göstərişlərinə əməl edən insanları cənnət əhli sayırlar. İslamın gəlişindən sonra isə artıq keçmiş dinlər, keçmiş qanunlar kimi kənara qoyulmalı, yeni və eyni zamanda son din olan islam şəriətinə əməl olunmalıdır. İslamın haqq din olduğunu bilə-bilə ona iman gətirməyənlər isə cəhənnəm əhli sayılırlar. Necə ki, Qurani-kərim buyurur: "Kafirlərə gəldikdə, onlara dünyada və axirətdə şiddətli əzab verəcəyəm. Onların heç bir köməkçisi olmayacaqdır!". (Ali-İmran, 56) Hətta uca Allah belə şəxslərin öz dinlərində qalıb, ona əməl edəcəklərinin faydasız olduğunu vurğulamışdır: "Kim islamdan başqa bir din ardınca gedərsə, (dini və ibadətləri) heç vaxt ondan qəbul olunmaz və o, axirətdə zərər çəkənlərdən olacaq!". (Ali-İmran, 85)**

Sözsüz ki, qeyri - müsəlman bir şəxsin islamın haqq din olduğunu öyrənməsi üçün ilk növbədə onun haqqında araşdırma aparması lazımdır. Amma nəzərə alsaq ki, dinlər arası tədqiqat hər kəsin bacaracağı bir iş deyil, bu zaman məsələ bir az mürəkkəbləşir. Çünki hər kəs hər bir zaman həqiqəti və gerçəkliyi görə bilmir. Xüsusilə də insanlar adətən öz ata-babalarının dinlərində qalır və başqa dinlər haqqında araşdırmaq, onların maraq çərçivəsində belə olmur. Belə olan halda onların axirət dünyası haqqında fikir yürütmək, islamı bilərəkdən qəbul etməyən şəxslərin qətiyyətlə Tanrı əzabına düçar olacaqları barədə danışmaq qədər asan olmur. Şübhəsiz, bu məsələni çözmək üçün ilk növbədə unutmamalıyıq ki, Allah-taala insanlara eyni dərəcədə və eyni ölçüdə nemət bəxş etməmişdir. Birini gözəl birini çirkin, birini sağlam birini xəstə, hətta birini varlı və birini kasıb ailədə dünyaya gətirmişdir. Əlbəttə, Allah-taala adil olduğundan qiyamət günü insanlarla onlara verdiyi nemətlər əsasında sorğu-sual edəcək. Xəstə və kasıb şəxsdən "nəyə görə həccə getmədin?" deyə soruşmayacaq. Çünki ona ağır və çətin səfər olan həcc ziyarəti üçün sağlam bədən və sərvət əta etməmişdir. Allahın ən dəyərli nemətlərindən biri də, bir insanın müsəlman ailəsində dünyaya gəlməsi və müsəlman ölkəsində böyüməsidir. Bu nemət hər kəsə nəsib olmadığına görə, insanların islam dininin qarşısında olan məsuliyyətləri də fərqlənir. Allah-taala nə qədər ki, islamın həqiqət üzünü, onun kamil bir ilahi din olduğunu öz bəndəsinə göstərməmişdir, o haqda həmin bəndəsindən heç bir sual soruşmayacaq, islama iman gətirmədiyi üçün öz bəndəsini cəzalandırmayacaq. Bu tezis, birmənalı olaraq Quranın öz məntiqinə əsaslanır. Qurani-kərimdə oxu-yuruq: **"Biz peyğəmbərləri (möminlərə) müjdə gətirən və (kafirləri) əzabla qorxudan olaraq göndərdik ki, daha insanlar üçün dəlillərdən sonra Allaha qarşı bir bəhanə yeri qalmasın."** (Nisa, 165) Quranın bu məntiqinə əsasən, əgər bəndənin Allaha qarşı bir bəhanə yeri qalmışsa, o zaman onun üzrü və bəhanəsi qəbul olunacaq. Təsəvvür edin ki, Avropada böyümüş heç bir islam dini haqqında düzgün məlumatı olmayan, hətta bəzi hallarda islam düşmənlərinin antitəbliğat xarakterli informasiyası nəticəsində islama qarşı bədbin olan bir insandan Allah-taala qiyamət günü "nəyə görə islam dininə iman gətirmədin?" deyə soruşarsa, nə qədər məntiqə uyğun olar? Axı bu iş onun potensiyalından və düşüncə çərçivəsindən kənar idi. Hələ Afrika çöllərində yaşayan, sivilizasiyadan uzaq, hətta dünyada hakim olan mövcud dinlərin adını belə eşitməyən şəxslərin çarəsiz hallarını demirəm! Mehriban Allah da öz buyurduğuna görə insanları heç zaman öz istedadlarından artıq bir şeyə məcbur etməz. Qurani-kərimdə oxuyuruq: **"Allah heç kəsi bacaracağından (istedadından) artıq bir işə mükəlləf etmir".** (Talaq,7)

Deməli, müsəlman mühitində yaşamadığına görə, islamın həqiqətindən və gözəlliyindən xəbərsiz olan insanları axirət günü müsəlman olmadıqları üçün cəza gözləmir. Bu çarəsiz insanların mühakiməsi onların ağlı



və vicdanı əsasında həyata keçəcək. Hədislərimizə görə, "ağıl" insanın batini peyğəmbəridir. Bu peyğəmbər nəfsani istəklərin və yersiz təəssübkeşliyin vasitəsi ilə zəncirlənməsə, insanı harada olusra olsun haqqa doğru çəkib aparacaq. Mötəbər kitablardan olan "Üsuli-kafi"nin, "əql və cəhl" fəslində belə rəvayət olunur: "Bir şəxs beşinci imamdan soruşdu: Ağıl nədir? İmam cavabında buyurdu: Elə bir şeydir ki, onun vasitəsilə Allaha pərəstiş olunur və behişt qazanılır". Nəticə etibarı ilə, ağıl hər kəsə verildiyi üçün ondan düzgün istifadə olunarsa, Allahı tapmaq, Ona tapınmaq və behişti qazanmaq mümkün olacaq. Şübhəsiz, insanların ağlı, onların fiziki gücləri kimi bir-birlərindən fərqli olduğu üçün, onlar eyni şəkildə mühakimə olunmayacaq. Bu barədə Məhəmməd peyğəmər (s) belə buyurmuşdu: **"Allah-təala qiyamət günü insanları, onlara verdiyi ağıla əsasən sorğuya çəkəcək"**.(Üsuli-kafi, əql və cəhl).

Əxlaqi məsələlərə gəldikdə isə, insanlar bu məsələləri düşünməkdə bir-birləri ilə əqli cəhətdən o qədər də fərqlənmirlər. Hər bir insan dinindən və irqindən fərqli olmayaraq öz ağıl və vicdanı ilə xeyir və şərrin, pis və yaxşının nə olduğunu tanıyır. Həmçinin, hər vicdanlı şəxs yaxşı iş görməyin düzgün və pis iş görməyin səhv olduğunu bilir. Məsələn, ədalətli və insaflı olmaq, başqalarının haqqını yeməmək, doğru danışmaq, vəfalı və sədaqətli olmaq, valideynə və müəllimə hörmət, uşaqlara və qocalara qayğı, insanlarla yaxşı və mehriban davranmaq, bacardıqca cəmiyyətin rifahı üçün maddi və mənəvi xidmət, kimsəsizlərə və yetimlərə kömək və bu kimi mənəvi keyfiyyətlər heç bir dinə mənsub olmayan insanların da düşündükləri və qəbul etdikləri əxlaqi normalardır. Elə islam dininin də özəyi və önəmli istəyi əxlaqdır. Belə olduqda, qiyamət günü qeyri müsəlmanlar öz ağıl və vicdanı ilə qəbul etdikləri bu əxlaqi keyfiyyətlərə görə cavab verməli olacaqlar. Əgər onlar öz həyatlarını əxlaq və mənəviyyat üzərində qurmayıblarsa, heç bir zaman cənnətə daxil olmaz, hətta etdikləri pis əməllərə görə cəhənnəm odunda yanmalı olacaqlar. Əks təqdirdə, heç bir maddi mənfəət güdmədən gözəl əxlaqa yalnız gözəl olduğu üçün əməl edənlər, ömürlərini riyasızlıqla paklıq uğrunda, mənəviyyat və insaniyyət yolunda həsr etmiş şəxslər isə, Allahın ədalətinə və Onun sonsuz mərhəmətinə görə labüddür ki, cənnət əhli olsunlar. Əslində xeyirxah və pak insanlar zahirdə müsəlman olmasalar da, əməldə müsəlman sayılırlar. Unutmayaq ki, **"Allah yaxşılıq edənləri sevir".** (Ali-İmran, 134)

Əlbəttə, artıq modern dünyada hər bir şey haqqında məlumat toplamaq asanlaşıb. Nəzərə alsaq ki, Allah-taala hər kəsin batinində həqiqət axtarması üçün bir maraq hissi qoymuşdur və islamın həqiqətini və gözəlliklərini görmək də çətin bir şey deyil, bu potensiyal yaşadığımız dövürdəki qeyri müsəlmanların məsuliyyətini bir az artırır. Əgər bugünün imkanları ilə onlar doğrudan da yenə islamın həqiqətini görməyə qabiliyyətləri olmasa, yuxarıda dediyim çarəsiz insanların qrupuna aid olunurlar. Allah da çarəsiz insanları bilərəkdən kafir qalan insanlardan istisna edib, onların haqqında belə buyurmuşdur:

**"Kafirlərin sığınacaqları yer cəhənnəmdir. O necə də pis yerdir! Yalnız hicrət etməyə (haqqa tapınmağa) yol və çarə tapa bilməyən aciz kişi, qadın və uşaqlar müstəsnadır. Ola bilsin ki, Allah onları əfv etsin. Allah əfv edəndir, bağışlayandır!". (Nisa, 97-98)**

Dr. Hacı Tofiq Əsədov

# TOPLUMUN İNKİŞAFINI NƏ ƏNGƏLLƏYİR? İMAM ƏLİNİN (Ə) BUYURDUĞU 4 AMİL

**Dövlətlərin ən mühüm xüsusiyyəti – xalqa xidmət etmək mübarizə-müdafiə ruhiyyəsinə malik olmaqdır. Çünki dövlət, xalqın nümayəndəsi kimi, insanların rifahını təmin etmək və dövləti inkişaf etdirmək vəzifəsini öhdəsinə götürmüşdür.**

Amma nalayiq insanların hökumət işinə qarışmaqları həmin dövlətin süqut etməsinə gətirib çıxarda bilir. Necə ki, Həzrət Süleymanın (ə) hökuməti ona görə tez süqut etdi ki, alçaq və xəbis insanlar bu dövlətə dəxalət etdilər və onu məhv etdilər.

Allah Təala bu barədə Qurani-Kərimdə buyurur: "(Yəhudilər) Süleymanın zamanında şeytanların (özlərinin tərtib etdikləri cadu kitabından) oxuduqlarına tabe oldular. Süleyman kafir olmadı (həmin dövrdə küfrə səbəb olan və ya küfr hesab olunan sehr günahına batmadı), lakin şeytanlar camaata sehr öyrətməklə və həmçinin Babil diyarına nazil olmuş iki mələyə - Harut və Maruta nazil olanla (onlara tabe olmaqla) kafir oldular.

Halbuki, o ikisi «biz yalnız imtahan vasitəsiyik (və sehri sənə yalnız sehrbazlarla mübarizə və onların sehrini batil etmək üçün öyrədirik)» deməkdən başqa heç kəsə (bir şey) öyrətmirdilər. Odur ki, amandır, küfr etmə (və sehri qadağan olunmuş yerlərdə istifadə etmə)!». Lakin onlar o iki varlıq vasitəsilə ərlə arvad arasında ayrılıq saldıqları şey öyrənirdilər, halbuki Allahın (əzəli) izni olmadan kiməsə zərər vurmaq qüdrətinə malik deyildilər. Və onlar daim özlərinə zərər vuran və faydası olmayan şeylər öyrənirdilər. Həqiqətən, belə bir əməli satın alanın axirətdə bir nəsibinin olmayacağının qətiliyini bilirdilər. Özlərini satdıqları şey olduqca pisdir, əgər bilsəydilər!". ("Bəqərə" 102).

İmam Əli (ə) dövlətlərin nə üçün inkişaf etmədiklərinin 4 səbəbini bəyan etmiş və buyurmuşdur:

**1. Əsil məsələləri zay etmək.**
**2. İkinci dərəcəli məsələlər ilə məşğul olmaq.**
**3. Alçaq insanların qabağa atılması.**
**4. Fəzilətli insanların geridə saxlanması.**

Bəli, məhz bu dörd səbəb sayəsində dövlətlər geridə qalır və inkişaf edə bilmirlər.

Qurani-Kərim Peyğəmbərə (s) xitab edərək buyurur: **"Beləliklə, Allah tərəfindən olan rəhmətin bərəkəti sayəsində onlarla (öz ümmətinlə) mülayim oldun və əgər qaba və daşürəkli olsaydın, onlar mütləq sənin ətrafından dağılışardılar. Belə isə, onları əfv et, onlar üçün bağışlanmaq dilə və işlərdə onlarla məsləhətləş və qəti qərara gəldikdən sonra Allaha təvəkkül et ki, şübhəsiz, Allah təvəkkül edənləri sevir".**

("Ali-İmran" 159).

Bu ayə zahirdə Peyğəmbərə (s) edilən xitab kimi görünsə də, əslində dövlətin necə olmasını xülasə şəkildə bəyan etməyə çalışmışdır.

Bu ayədə dörd qanun gözümüzdən qaçmır. Bu qanunlar ilə tanış olaq.

1. Güzəşt və əfv. Allah Təala bu ayədə Həzrət Peyğəmbərə (s) dörd göstəriş verir ki, onların yerinə yetirilməsində əsil amilin onun gözəl əxlaqa malik olmasını bəyan etmişdir. Allah buyurur ki, onların səhvlərini, büdrəmələrini bağışla və güzəşt et. Güzəşt etmək, mülayimlik göstərmək – İlahi əxlaqın nişanələrindəndir.

2. Bağışlanma istəmək. Allah Təala buyurur ki, bu insanlar ki, səhv ediblər və sən də onları bağışlamısan. Ola bilsin ki, tövbələri Mənə qədər gəlib çatmasın. Çünki maneələr çoxdur. Ancaq əgər sən onların yerinə bağışlanma istəsən, mənə daha tez çatar.

3. Qərar verən zaman məsləhət etmək. Allah Təala Peyğəmbərinə (s) buyurur ki, əgər bağlı qapı arxasında, insanların halından xəbərsiz halda qanun vermək istəyirsənsə, nəticə əldə edə bilməyəcəksən. Çünki onların halından xəbərdar deyilsən. Ona görə də Allah məsləhət görür ki, ilk olaraq insanların dərdi ilə tanış ol, onların rəylərini al, ondan sonra qanun və hökm ver.

4. Təvəkkül. Allah Təbarəkə və Təala buyurur ki, o zaman bir qanun verirsən, Məni özünə vəkil seç. Mənim iradəm və gücüm sayəsində həmin qanun xoş qarşılanacaq və həyata keçəcəkdir.

tebyan/deyerler